RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 144 (10164) 13 avqust 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## “Qədim diyarımız Naxçıvan!”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Naxçıvan səfəri ilə bağlı videoçarx paylaşılıb.

*https://www.facebook.com/share/v/1Eo4UEDp2S/*

## Ulu Öndərin dövlətçilik xətti və Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Naxçıvan bu gün yüksək inkişaf dövrünü yaşayır



## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Qədim tarixi, zəngin mədəniyyəti, dövlətçilik ənənələri və yüksək potensialı olan Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının iqtisadi, siyasi və mədəni həyatında xüsusi yer tutur, ölkəmizin inkişafında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla həyata keçirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir.

Son illərdə Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi, infrastruktur təminatının və sosial xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, habelə əhalinin məşğulluğunun və rifah halının yaxşılaşdırılması məqsədilə bir sıra mühüm dövlət proqramları və tədbirlər planları təsdiq olunmuş, o cümlədən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında yeni istilik-elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında", "Naxçıvan Sənaye Parkının yaradılması haqqında", "Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı və sərəncamları qəbul edilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli 1044 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində Naxçıvan Muxtar Respublikasında aqrar sektorun modernləşdirilməsi, ekstensiv istehsalatdan intensiv modelə keçid və ərzaq təhlükəsizliyinin təmin olunması, habelə aqrar məhsul istehsalı kooperativləri və onların ittifaqlarının dövlət dəstəyi ilə pilot olaraq yaradılması və fəaliyyətinin dəstəklənməsi istiqamətində mühüm strateji hədəflər müəyyən edilmişdir.

Dövlət proqramlarının və infrastruktur layihələrinin uğurlu icrası nəticəsində Naxçıvan Muxtar Respublikası dinamik inkişafını davam etdirir. Bu çərçivədə Naxçıvan Regional DOST Mərkəzi inşa edilmiş, şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 68 mənzil ayrılmışdır.

Naxçıvan şəhərində görkəmli memar Əcəmi Naxçıvaninin abidəsi ucaldılmışdır və hazırda Möminə xatun türbəsində bərpa-konservasiya işləri aparılır.

Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir, o cümlədən Naxçıvan şəhərində Regional Rəqəmsal İdarəetmə və SCADA Mərkəzinin, 110/35/10 kV-luq "Naxçıvan", 154/110/10 kV-luq "Babək", Culfa rayonunda 132/110/10 kV-luq "Culfa" və Babək rayonunda 110/35/10 kV-luq "Çeşməbasar" elektrik yarımstansiyalarının inşası başa çatdırılmışdır və 400/330/110 kV-luq "Naxçıvan çevirici qovşaq" yarımstansiyasının tikintisinə hazırlıq işləri aparılır.

Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində "yaşıl enerji zonası" elan olunmuş muxtar respublikada ümumi gücü 50 MVt olan "Şəms 1" və "Üfüq" günəş-elektrik stansiyalarının, habelə gücü 36 MVt olan "Ordubad" və 15,6 MVt olan "Tivi" su-elektrik stansiyalarının inşası davam etdirilir.

Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində də işlər davam etdirilir, o cümlədən 194,2 kilometrlik təkxətli Naxçıvan dəmir yolu xəttinin 7 kilometrlik hissəsində tikinti işləri aparılır.

Hazırda Naxçıvan Sənaye Parkının, Naxçıvan şəhərində 518 mənzilli sosial evlərin və yeni hotel kompleksinin tikintisinə başlanılması üçün müvafiq tədbirlər görülür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında 2026-2027-ci illərdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsini, yol, nəqliyyat və təhsil infrastrukturunun yenilənməsini, habelə abadlıq-quruculuq işlərinin davam etdirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə aşağıda qeyd olunan tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən ümumilikdə 258,0 (iki yüz əlli səkkiz) milyon manat ayrılması nəzərdə tutulsun, o cümlədən:

1.1. Ordubad rayonunun Tivi kəndində Gilançay üzərində ümumi gücü 15,6 MVt olan Tivi Su-Elektrik Stansiyasında tikinti-quraşdırma işlərinin davam etdirilməsi üçün "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə 66,0 (altmış altı) milyon manat;

1.2. ümumilikdə 156,3 min nəfər əhalinin yaşadığı 26 yaşayış məntəqəsini birləşdirən, ümumi uzunluğu 420 kilometr olan 2 kəndlərarası, 5 şəhər və 10 kəndin ərazisindəki avtomobil yollarının əsaslı təmiri üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 70,0 (yetmiş) milyon manat *(yolların siyahısı əlavə olunur)*;

1.3. Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisi məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 25,0 (iyirmi beş) milyon manat;

1.4. Naxçıvan, Şərur, Culfa, Ordubad və Şahbuz şəhərlərində ümumilikdə 2164 mənzilli 92 yaşayış binasının tam, Naxçıvan, Culfa və Şərur şəhərlərində cəmi 3087 mənzilli 70 yaşayış binasının isə yalnız fasad hissəsinin əsaslı təmiri üçün müvafiq şəhər (rayon) icra hakimiyyətlərinə 15,0 (on beş) milyon manat;

1.5. Naxçıvan Muxtar Respublikasında ümumilikdə 640 yerlik 5, o cümlədən Naxçıvan şəhərinin Bulqan kəndində 100 yerlik, Ordubad rayonunun Dəstə kəndində 100 yerlik, Şərur şəhərində 100 yerlik, Culfa rayonunun Əbrəqunus kəndində 240 yerlik, Kəngərli rayonunun Qarabağlar kəndində 100 yerlik yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 20,0 (iyirmi) milyon manat;

1.6. şəhərlərarası ictimai nəqliyyat parkının yenilənməsi məqsədilə ilkin mərhələdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə 53,0 (əlli üç) milyon manat;

1.7. Naxçıvan, Şərur, Culfa və Ordubad şəhərlərində ümumilikdə 122 yaşayış binasının 5335 mənzilinə xidmət göstərən 45 istilik qazanxanasının əsaslı təmiri üçün müvafiq şəhər (rayon) icra hakimiyyətlərinə 9,0 (doqquz) milyon manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Maliyyə və İqtisadiyyat nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2026-cı il*

## Zamanın sınaqlarından üzüağ çıxan diyar

2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı dövlət siyasəti Naxçıvan Muxtar Respublikasını keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxardı. Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində regionda həyata keçirilən sosial-iqtisadi proqramlar muxtar respublikanın enerji müstəqilliyini təmin etdi, nəqliyyat-logistika imkanlarını genişləndirdi və yeni istehsal sahələrinin yaranmasına şərait yaratdı. Müasir istilik, su və günəş-elektrik stansiyalarının istismara verilməsi, sosial infrastrukturun yenilənməsi, magistral yolların çəkilməsi Naxçıvanı regionun nümunəvi subyektinə çevirdi.

Bu inkişaf xəttinin məntiqi davamı olaraq, Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Hazırda muxtar respublikanın ölkə iqtisadiyyatına tam inteqrasiyasını və dayanıqlı artımı hədəfləyən bu proqram çərçivəsində genişmiqyaslı layihələr uğurla icra olunur. 2024-cü ilin dekabrında Naxçıvan-Sədərək avtomagistralı üzərində 310 hektar sahədə Naxçıvan Sənaye Parkının yaradılması, İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi və bölgənin "yaşıl enerji zonası" elan edilməsi muxtar respublikanın sənaye və enerji potensialını keyfiyyətcə daha yüksək pilləyə qaldırır.

3



## Milli dəyərlərimiz əvəzsiz mənəvi sərvətimizdir

Tarixi Qələbəmizdən sonra Şuşaya ilk səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev gənclərimizin Vətən müharibəsindəki qəhrəmanlığını nəzərdə tutaraq demişdir: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".

6

## Bir dənizin taleyi, beş ölkənin məsuliyyəti

Xəzərin taleyinə "yazılmış" bir həqiqət isə xüsusilə diqqət çəkir: bu dənizin heç bir sərhədi yoxdur, amma onun gələcəyi beş ölkənin birgə səy göstərməsini tələb edir. Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan sahillərini əhatə edən bu unikal su hövzəsinin qorunması bu dövlətlərin birgə fəaliyyətindən keçir. Çünki Xəzərin bir hissəsində baş verən ekoloji proses digər sahillərə də təsirsiz ötüşmür. Məhz bu reallıq Xəzərin mühafizəsini regional əməkdaşlığın ən mühüm istiqamətlərindən birinə çevirib.

8



## E.İ.Sultanovun Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elnur İxtiyar oğlu Sultanov Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2026-cı il*

## E.İ.Sultanovun Azərbaycan Respublikasının İsveç Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elnur İxtiyar oğlu Sultanov Azərbaycan Respublikasının İsveç Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2026-cı il*

## Z.R.Əhmədovun Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Danimarka Krallığında, Finlandiya Respublikasında və Norveç Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zaur Rəşid oğlu Əhmədov Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Danimarka Krallığında, Finlandiya Respublikasında və Norveç Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2026-cı il*

## N.E.Mustafayevanın Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nərminə Elsevər qızı Mustafayeva Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2026-cı il*

# Prezident İlham Əliyevin Naxçıvana səfəri Gürcüstan mətbuatının əsas mövzusuna çevrilib

**Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri və səfər çərçivəsində müsahibəsində söylədiyi fikirlər, səsləndirdiyi bəyanatlar Gürcüstan mətbuatının diqqət mərkəzində olub.**




AZƏRTAC xəbər verir ki, "interpressnews.ge", "1tv.ge", "bpn.ge" informasiya portalları və televiziyaları dövlətimizin başçısının İkinci Qarabağ müharibəsində Ermənistanın təslim olması, Azərbaycanın enerji siyasəti, eləcə də Ermənistan AES-in region üçün yaratdığı təhlükələr barədə fikirlərindən materiallar dərc ediblər.

Azərbaycan Prezidentinin nitqindən gətirilən sitatda deyilir: "İkinci Qarabağ müharibəsinin başa çatması ilə əlaqədar üçtərəfli Bəyanat imzalanmışdır - Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri. Əslində, bu, Ermənistan üçün kapitulyasiya aktı idi, çünki Ermənistan təslim oldu. O vaxt hələ işğal altında olan, - müharibə yolu ilə hələ biz o bölgələri azad etməmişdik, - Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Təbii ki, Ermənistan bunu könüllü etməmişdir, biz onu məcbur etdik. Kimisə müharibə şəraitində məcbur edirsənsə, deməli, həmin o tərəf kapitulyasiyaya uğrayır. Yəni bu termində hər hansı bir alçaldıcı, yaxud da ki, təhqiramiz bir məna axtarmaq lazım deyil. Bu, sadəcə olaraq, reallıqdır".

Digər materiallarda Prezident İlham Əliyevə istinadla deyilir ki, Azərbaycan Avropa bazarına elektrik enerjisi tədarük etmək istəyir və bunun yeganə yolu Gürcüstandan və Türkiyədən keçir: "Yerləşdiyimiz bölgədə bizdən başqa bu qədər enerji ilə, istər neft-qaz, istər elektrik enerjisi ilə təmin olunan ikinci ölkə yoxdur. Qonşu ölkələrə ixrac imkanlarımızı genişləndirərək biz, eyni zamanda Avropa bazarına da çıxacağıq. Çünki biz indi Avropaya neftimizlə, qazımızla çıxmışıq. Ancaq biz elektrik enerjisi ilə də çıxmaq istəyirik. Bu gün yeganə marşrut Gürcüstan, Türkiyə, ondan sonra Avropa marşrutudur. Bunu biz genişləndirməliyik. O cümlədən Qara dəniz enerji kabelinin layihəsinin texniki-iqtisadi əsaslandırılması hazırdır. Amma ikinci xətt olsa, bu ancaq bizim gücümüzü artıracaq. Özü də yəqin ki, siz də xatırlayırsınız, hələ 2024-cü ilin noyabrında COP29 zamanı Qazaxıstan, Özbəkistan prezidentləri və mən Xəzərin dibi ilə elektrik kabelinin çəkilişini razılaşdırdıq, saziş imzaladıq. Yəni ona da biz hazır olmalıyıq".

Digər materialda isə Ermənistan AES-in yaratdığı təhlükə barədə, eləcə də Ermənistanın enerji təminatı ilə bağlı fikirlər yer alıb.

## Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 avqust tarixli Sərəncamına Əlavə

### Naxçıvan Muxtar Respublikası ərazisində əsaslı təmir olunacaq kəndlərarası, şəhər və kəndlər ərazilərindəki avtomobil yollarının Siyahısı

| Sıra №-si | Layihələrin adları | Uzunluq, km | Əhali, nəfər | Yaşayış məntəqələri |
|---|---|---|---|---|
| | **Cəmi:** | **420** | **156271** | **26** |
| 1. | Ordubad rayonunda Biləv-Bist-Ələhi-Xurs-Nürgüt-Tivi-Nəsirvaz avtomobil yolu | 40,0 | 3413 | 7 |
| 2. | Culfa rayonunda Kırna-Dizə-Gal-Şurud avtomobil yolu | 30,0 | 1785 | 4 |
| 3. | Naxçıvan şəhəri ərazisindəki (Azərbaycan, Zərifə Əliyeva, 20 Yanvar, 6-cı küçələr, Xətai, 12, 48, 49, 52, 54, 56, 57, 59, 60-cı məhəllələr, Əliabad qəsəbəsi, Qaraxanbəyli kəndi) avtomobil yolları | 50,0 | 91000 | 1 |
| 4. | Ordubad şəhəri ərazisindəki avtomobil yolları | 60,0 | 10798 | 1 |
| 5. | Babək şəhəri ərazisindəki avtomobil yolları | 33,0 | 6028 | 1 |
| 6. | Şahbuz şəhəri ərazisindəki avtomobil yolları | 31,0 | 4654 | 1 |
| 7. | Culfa şəhəri ərazisindəki avtomobil yolları | 24,0 | 13748 | 1 |
| 8. | Babək rayonunun Qahab, Naxışnərgiz, Şəkərabad, Çeşməbasar və Güznüt kəndləri ərazisindəki avtomobil yolları | 59,0 | 9616 | 5 |
| 9. | Culfa rayonunun Əbrəqunus və Bənəniyar kəndləri ərazisindəki avtomobil yolları | 41,0 | 6563 | 2 |
| 10. | Ordubad rayonunun Dəstə kəndi ərazisindəki avtomobil yolları | 33,0 | 5268 | 1 |
| 11. | Şərur rayonunun Qarxun kəndi ərazisindəki avtomobil yolları | 13,0 | 2490 | 1 |
| 12. | Şahbuz rayonunun Nursu kəndi ərazisindəki avtomobil yolları | 6,0 | 908 | 1 |

# Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı fikirləri Türkiyə mediasının diqqət mərkəzindədir




**Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində yer alan vacib məqamlar Türkiyə mediasında geniş əks-səda doğurub.**

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin aparıcı xəbər agentlikləri, televiziya kanalları, xəbər portalları və qəzetləri Azərbaycan liderinin açıqlamalarını çoxmilyonlu auditoriyası ilə bölüşüb, həmçinin Prezident İlham Əliyevin müsahibəsindən sitatlar dərc edib.

"Türkiye" qəzeti "Zəngəzur dəhlizi genişlənir! Əliyev məsələni ətraflı izah etdi" sərlövhəli məqaləsində Azərbaycanın əsas hissəsini onun ayrılmaz parçası olan Naxçıvanla birləşdirən marşrutun Türkiyə və bütün türk dünyası üçün əhəmiyyətini vurğulayıb.

Qəzet oxucularını Azərbaycan Prezidentinin bəyanatları ilə tanış edərək vurğulayıb ki, TRIPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) sadəcə dəmir yolu və avtomobil yolu deyil. Qəzet Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin açılmasına nail olunması ilə bağlı sözlərini sitat gətirərək qeyd edib: "Bu marşrut gələcəkdə fiber-optik kabel, elektrik xətləri və zərurət yarandıqda, neft və qaz boru kəmərləri üçün də istifadə edilə bilər".

"Hürriyet", "Milliyet", "Star" və digər qəzetləri də öz oxucularına Prezident İlham Əliyevin bəyanatlarını təqdim edib.

"Anadolu" xəbər agentliyi "Azərbaycan Prezidenti Zəngəzur dəhlizini qiymətləndirir" sərlövhəli məqaləsində Zəngəzur dəhlizi məsələsinin həllini tapdığı 2025-ci il avqustun 8-də keçirilən tarixi Vaşinqton Sammitinin nəticələrini xatırladıb.

Agentlik dövlət başçısının Ermənistan sərhədinə dəmir yolu xəttinin çəkilməsi və Naxçıvanda dəmir yolu işləri ilə bağlı fikirlərini abunəçiləri ilə bölüşüb. Qeyd olunub ki, Bakı bu nəqliyyat dəhlizi vasitəsilə yükdaşımalarını ildə azı 15 milyon tona çatdırmağı hədəfləyir.

Agentlik Prezident İlham Əliyevin Ermənistanın köhnəlmiş atom elektrik stansiyasının qonşu ölkələrə yaratdığı təhlükə ilə bağlı sözlərinə xüsusi diqqət yetirib. "Anadolu" Azərbaycan Prezidentinin bu barədə fikirlərini sitat gətirib: "....Çünki onların bu gün əsas enerji mənbəyi atom elektrik stansiyasıdır. Onun da idarəetməsi onların əlində deyil. Bu birincisi. İkincisi, bu stansiya köhnəlib və bütün bölgə üçün təhlükə mənbəyidir. Dəfələrlə Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq platformalarda bu məsələ ilə bağlı öz narahatlıqlarını ifadə ediblər. O stansiyanın ömrünün uzadılması sonsuz proses ola bilməz, gec-tez bağlanmalıdır. Təbii ki, o bağlanarsa, Ermənistan tamamilə enerji böhranına yuvarlanacaq. Ona görə, necə deyərlər, bir əlavə mənbənin olması ancaq xeyir gətirə bilər".

Türkiyənin populyar televiziya kanalları "HaberGlobal", "HaberTürk" və "Ulusal TV" də Azərbaycan Prezidentinin bəyanatları ilə bağlı reportajlar yayımlayıb, həmçinin müvafiq xəbərləri veb-saytlarında və sosial media səhifələrində yerləşdirib.

# Qədim Naxçıvanın turizm imkanları

**Azərbaycanın ən qədim mədəniyyət və sivilizasiya diyarlarından biri olan Naxçıvan bu gün həm də turizm məkanlarından biri kimi tanınır. Bölgə zəngin tarixi-mədəni irsi, özünəməxsus təbiəti və təbii sərvətləri ilə diqqət çəkir. Naxçıvanın turizm imkanlarını fərqləndirən əsas xüsusiyyət turizmin bir neçə istiqamətinin eyni məkanda birləşməsidir. Muxtar respublikada qədim memarlıq nümunələri, dağ mənzərəsi, yaylaqlar, mineral və müalicəvi sular, mağaralar, təbiət qoruqları, ziyarət məkanları vəhdət təşkil edərək, bura üz tutan turistlər üçün bir çox imkan vəd edir. Bu baxımdan Naxçıvanda, mədəni, dağ, ekoturizm, kənd, macəra, sağlamlıq kimi fərqli turizm təcrübələrini bir səfərdə yaşamaq mümkündür.**



Möminə xatun türbəsi, Əlincə qalası, Qarabağlar Memarlıq Kompleksi, Gəmiqaya tarixin yaddaşından, Batabat, Şahbuzun dağlıq əraziləri və Ordubadın səfalı yerləri əsrarəngiz təbiətdən, Duzdağ, Darıdağ və mineral su mənbələri isə zəngin şəfa ocağından xəbər verir.

Beləliklə, Naxçıvanın turizm potensialı yalnız tarixi və təbii məkanlarla deyil, bu imkanların müasir turizm tələblərinə uyğun şəkildə təqdim edilməsi və vahid turizm konsepsiyasında birləşdirilməsi ilə ölçülür. Qədim irslə müasir turizm imkanlarının vəhdəti Naxçıvanın gələcəkdə Azərbaycanın əsas turizm istiqamətlərindən birinə çevrilməsi üçün mühüm zəmin yaradır.

Naxçıvanın böyük turizm potensialı olduğunu deyən **Milli Məclisin deputatı Göydəniz QƏHRƏMANOV** qəzetimizə açıqlamasında bildirib ki, muxtar respublikanın qədim tarixi, mədəni abidələri, zəngin mətbəxi, qonaqpərvər insanları bu bölgəni turistlər üçün cəlbedici edir: "Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Naxçıvanın sağlamlıq turizm imkanları daha genişdir. Burada yerləşən Duzdağ mağarası bir çox ölkədən insanları müalicə almaq üçün Naxçıvana gətirir. Bu baxımdan tibbi turizm imkanları yüksəkdir".

Deputat Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində yeni beşulduzlu hotelin təməlini qoyduğunu xatırladaraq əlavə edib ki, dövlət başçısının diqqəti, daimi dəstəyi bölgədə turizm sahəsinin prioritet istiqamət olaraq mövqeyini gücləndirdiyini göstərir. Bu, ilk növbədə yeni iş yerlərinin açılmasına geniş imkanlar açır, eyni zamanda ölkəmizə gələn turistlərin rahat şəkildə istirahət etməsinə şərait yaradır. "Azərbaycanın regionda turizm sahəsində liderliyini daim qoruması üçün çox geniş imkanlar var. Dövlət tərəfindən bu istiqamətdə bir çox ardıcıl işlər həyata keçirilir. Təhlükəsizlik məsələləri ən yüksək səviyyədədir. Həmçinin Azərbaycanda 9 beynəlxalq hava limanı mövcuddur, logistik imkanlar genişləndirilir. Zəngəzur dəhlizinin (TRIPP) açılışından sonra isə Naxçıvan turizm bölgəsi olaraq daha cəlbedici olacaq və imkanlarını genişləndirəcək. Beləliklə, gələcəkdə bu bölgədə turistlərin kəskin artımı müşahidə olunacaq", - deyə G.Qəhrəmanov əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Parlamentlərarası İttifaq Beynəlxalq Gənclər Günü ilə bağlı tədbir keçirib

**Avqustun 12-də Parlamentlərarası İttifaqın (PAİ) təşkilatçılığı ilə Beynəlxalq Gənclər Gününə həsr olunmuş "Daha gənc və fərqli tərkibli parlamentlərin qurulması" mövzusunda videokonfrans formatında tədbir keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onlayn tədbirə Milli Məclisin deputatları Səbinə Xasayeva və Kamal Cəfərov qatılıblar.

Gənc parlamentariləri, beynəlxalq tərəfdaşları, vətəndaş cəmiyyəti təşkilatlarını və maraqlı tərəfləri bir araya gətirən toplantıda gənclərin parlamentlərdə təmsilçiliyi, gənclər arasında təcrübə mübadiləsi, bir sıra təşəbbüslərin araşdırılması və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***



# Naxçıvan ölkəmizə yeni strateji üstünlüklər qazandıracaq

**Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri və bu çərçivədə verdiyi müsahibədə səsləndirdiyi fikirlər göstərir ki, Naxçıvanın inkişafına artıq yalnız bir regionun sosial-iqtisadi tərəqqisi kontekstində deyil, Azərbaycanın uzunmüddətli geosiyasi və geoiqtisadi strategiyasının mühüm tərkib hissəsi kimi yanaşılır.**



Dövlət başçısının mesajlarından aydın görünür ki, qarşıdakı dövrdə Naxçıvanın həm ölkə daxilində, həm də bütövlükdə regionda rolu əhəmiyyətli dərəcədə artacaq. Naxçıvanın coğrafi mövqeyi uzun illər müəyyən məhdudiyyətlər yaratsa da, bu gün həmin mövqe böyük strateji üstünlüyə çevrilməkdədir. Azərbaycan, Türkiyə, Cənubi Qafqaz və daha geniş mənada Mərkəzi Asiya-Avropa xəttinin kəsişməsində yerləşən Naxçıvan yeni nəqliyyat və enerji xəritəsinin mühüm qovşaqlarından biri olmaq potensialına malikdir.

Prezident İlham Əliyevin müsahibəsində diqqətçəkən mühüm məqamlardan biri Naxçıvanın inkişafının Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq prosesi ilə vahid strateji baxış çərçivəsində təqdim edilməsidir. Dövlət başçısı "yaşıl enerji", kənd təsərrüfatı, suvarma, turizm və infrastruktur istiqamətlərində görülən işlərdən danışaraq bu bölgələrin iqtisadi baxımdan bir-biri ilə əlaqələndiriləcəyini vurğulayıb. Bu yanaşma faktiki olaraq Azərbaycanın qərb bölgələrindən Naxçıvana qədər uzanan yeni iqtisadi inkişaf məkanının formalaşdırılması deməkdir.

Bu bölgədə nəqliyyat kommunikasiyalarının açılması xüsusi strateji əhəmiyyət daşıyır. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantının təmin olunması təkcə ölkəmizin daxili kommunikasiya məsələsi deyil. Bu, eyni zamanda Türkiyə ilə Azərbaycan arasında əlaqələri daha da gücləndirəcək, Orta dəhlizin imkanlarını genişləndirəcək və Mərkəzi Asiyadan Avropaya uzanan nəqliyyat-logistika sisteminə yeni imkanlar yaradacaq.

Prezidentin müsahibəsində qeyd etdiyi kimi, yeni kommunikasiya imkanlarından regionun digər dövlətləri, o cümlədən Ermənistan da istifadə edə bilər. Dövlət başçısının bu məsələdə ortaya qoyduğu yanaşma çox aydındır: yeni əməkdaşlıq modelində iqtisadi və nəqliyyat baxımından uduzan tərəf olmamalıdır.

Naxçıvanın inkişaf strategiyasının digər mühüm istiqaməti enerji sektorudur. Muxtar respublikanın günəş enerjisi potensialı, burada həyata keçirilən yeni enerji layihələri Naxçıvanın gələcəkdə "yaşıl enerji" istehsalı və ixracı mərkəzlərindən birinə çevrilməsi üçün ciddi imkanlar yaradır. Naxçıvan üzərindən Türkiyəyə və oradan Avropa istiqamətinə enerji bağlantılarının inkişafı bu bölgənin əhəmiyyətini milli sərhədlərdən kənara çıxarır.

Eyni zamanda Naxçıvanda sənayeləşmə, sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması, kənd təsərrüfatı, su təminatı, turizm və sosial infrastruktur üzrə həyata keçirilən layihələr kompleks xarakter daşıyır. Burada əsas məqsəd təkcə yeni obyektlərin tikilməsi deyil, uzunmüddətli və dayanıqlı iqtisadi modelin formalaşdırılmasıdır.

Prezident İlham Əliyevin Naxçıvan şəhərinin bütövlükdə muxtar respublikanın inkişafı ilə bağlı baş plana xüsusi diqqət yetirməsi də bu baxımdan mühüm məqamdır. Söhbət gələcək onillikləri əhatə edən sistemli şəhərsalma və regional inkişaf modelindən gedir. Yəni bugünkü layihələr Naxçıvanın gələcək iqtisadi və demoqrafik inkişaf perspektivləri nəzərə alınmaqla həyata keçirilir.

Naxçıvanın tarixi və mədəni potensialının qorunması da bu inkişaf modelinin ayrılmaz hissəsidir. Möminə xatun türbəsi kimi dünya əhəmiyyətli memarlıq abidələrinin bərpası, Əcəmi Naxçıvani irsinə göstərilən diqqət, tarixi-mədəni məkanların yenilənməsi Naxçıvanın beynəlxalq turizm potensialının daha geniş şəkildə təqdim olunmasına imkan verəcək.

Bütövlükdə Prezident İlham Əliyevin Naxçıvana səfəri və müsahibəsində verdiyi mesajlar bir strateji nəticəni ön plana çıxarır: Naxçıvan Azərbaycanın yeni regional siyasətində periferik coğrafiya deyil, əksinə, ölkəmizin Şərqlə Qərbi, Azərbaycanla Türkiyəni və daha geniş mənada türk dünyasını birləşdirən əsas strateji məkanlardan birinə çevrilir.

Azərbaycanın yaratdığı yeni reallıqlar şəraitində Naxçıvan nəqliyyat və logistika qovşağı, "yaşıl enerji" mərkəzi, sənaye və ticarət platforması, eyni zamanda mühüm turizm məkanı kimi inkişaf etdirilir. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın vahid iqtisadi və kommunikasiya məkanında birləşdirilməsi isə Azərbaycanın regional gücünü və tranzit imkanlarını daha da artıracaq.

Bu baxımdan, Prezident İlham Əliyevin Naxçıvana səfəri yalnız görülmüş işlərin təqdimatı deyil, Naxçıvanın gələcək onilliklərdə Azərbaycanın regional və qlobal mövqeyində tutacağı yerin strateji konturlarının nümayişidir.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Zamanın sınaqlarından üzüağ çıxan diyar

## Ulu Öndərin dövlətçilik xətti və Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Naxçıvan bu gün yüksək inkişaf dövrünü yaşayır




**Tariximizdə özünəxas yeri və rolu olan qədim Naxçıvan diyarı əsrlər boyu böyük sivilizasiyaların, elm, mədəniyyət və memarlıq məktəblərinin mühüm mərkəzlərindən biri olub. Atabəylər dövlətinin paytaxtı kimi şöhrət qazanan, Əcəmi Naxçıvani irsi ilə Şərq memarlığına misilsiz incilər bəxş edən bu diyarımız həm də yetişdirdiyi görkəmli şəxsiyyətlərlə milli dövlətçiliyimizin və elmi-mədəni fikrimizin tərəqqisinə əvəzsiz töhfələr verib. Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı, ağır sınaqlardan üzüağ çıxaraq yüksəlişə qovuşması məhz Ulu Öndər Heydər Əliyevin adı və uzaqgörən dövlətçilik strategiyası ilə sıx bağlıdır.**

Ümummilli Liderin Naxçıvanın sosial-iqtisadi və mədəni inkişafındakı misilsiz xidmətlərinin təməli hələ ötən əsrin 70-80-ci illərində, Azərbaycan SSR-yə rəhbərlik etdiyi ilk dövrdə qoyulub. 1969-cu ildən etibarən Heydər Əliyevin rəhbərliyi ilə respublikanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da sənayeləşmə və infrastrukturun yenidən qurulması istiqamətində irimiqyaslı layihələr gerçəkləşdirilib. Təkcə 1971-1975-ci illərdə muxtar respublika iqtisadiyyatına əvvəlki 46 il ərzindəkindən daha çox vəsaitin yönəldilməsi burada həyata keçirilən quruculuq işlərinin miqyasını aydın göstərir. O illərdə "Araz" Su-Elektrik Stansiyasının, onlarca iri sənaye müəssisəsinin, emal və tikinti kombinatlarının istifadəyə verilməsi Naxçıvanı inkişaf etmiş sənaye-aqrar regionuna çevirib. Məhz həmin dövrdə uzaqgörənliklə əsası qoyulan energetika infrastrukturu muxtar respublikanın taleyində həlledici rol oynayıb.

Naxçıvanın müasir tarixində ən mühüm və taleyüklü mərhələ isə 1990-cı illərin əvvəllərinə təsadüf edir. Çox mürəkkəb tarixi-siyasi şəraitdə, Ermənistanın hərbi təcavüzü və ağır blokada məngənəsində sıxılan Naxçıvan işğala məruz qalmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Naşı və xəyanətkar siyasətlə dövlətimizi uçuruma aparan ozamankı mərkəzi hökumət Naxçıvanı Allahın ümidinə buraxmışdı. Lakin xalqın təkidli tələbi ilə doğma yurda qayıdan Ümummilli Lider Heydər Əliyev muxtar respublikanı bu ağır böhrandan xilas etdi. Ulu Öndərin 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə təkcə bu regionun deyil, bütövlükdə müstəqil Azərbaycanın gələcək taleyini müəyyənləşdirən tarixi addımlar atıldı.

1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvanın dövlət rəmzi olaraq qəbul edilməsi, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması isə müstəqillik mübarizəmizin ön cəbhəsinə çevrildi. Dahi rəhbərin yüksək nüfuzu və qətiyyəti sayəsində regionun etibarlı müdafiəsi təmin olundu, əhalinin ərzaq və enerji tələbatı ödənildi. Ağır blokada şəraitinə baxmayaraq, Ümummilli Liderin rəhbərliyi ilə Naxçıvanda ölkə tarixində ilk dəfə aqrar islahatlara başlanıldı, kənd təsərrüfatında sürətli canlanma əldə edildi. 1992-ci ildə Araz çayı üzərində Türkiyə ilə Naxçıvanı birləşdirən "Ümid" körpüsünün istifadəyə verilməsi, İran və Türkiyə ilə enerji, nəqliyyat və ticarət əlaqələrinin qurulması regionu təcriddən çıxarmaq yolunda ilk strateji pəncərəni açdı.

Ümummilli Liderin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışından sonra Naxçıvanın inkişafı ölkənin vahid sosial-iqtisadi tərəqqi strategiyasının ayrılmaz tərkib hissəsinə çevrildi. Həmin illərdə Ulu Öndərin birbaşa təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən strateji islahatlar Naxçıvanın uzunmüddətli davamlı inkişafının hüquqi və iqtisadi təməlini qoydu. Ölkə miqyasında reallaşdırılan aqrar islahatlar, özəlləşdirmə proqramları muxtar respublikada da uğurla tətbiq edilərək yerli istehsalın və özəl bölmənin formalaşmasına güclü təkan verdi.

Regional tərəfdaşlarla qurulan strateji əməkdaşlıq sayəsində Naxçıvanın elektrik enerjisi və qaz təminatı sistemi əsaslı şəkildə bərpa olundu. Eyni zamanda regionun hərbi təhlükəsizliyinin möhkəmləndirilməsi, ordu quruculuğunun sürətləndirilməsi və nəqliyyat-infrastruktur layihələrinin genişləndirilməsi daim dövlətin xüsusi diqqət mərkəzində saxlanıldı. Bütün bu məqsədyönlü tədbirlər Naxçıvanı böhran zonasından çıxararaq onu ölkəmizin sürətlə yenidən qurulan və iqtisadi potensialı günbəgün artan aparıcı regionlarından birinə çevirdi. Bu möhkəm təməl hazırda muxtar respublikanın dinamik yüksəlişini təmin edən əsas güc mənbəyidir.

2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı dövlət siyasəti Naxçıvan Muxtar Respublikasını keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxardı. Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində regionda həyata keçirilən sosial-iqtisadi proqramlar muxtar respublikanın enerji müstəqilliyini təmin etdi, nəqliyyat-logistika imkanlarını genişləndirdi və yeni istehsal sahələrinin yaranmasına şərait yaratdı. Müasir istilik, su və günəş-elektrik stansiyalarının istismara verilməsi, sosial infrastrukturun yenilənməsi, magistral yolların çəkilməsi Naxçıvanı regionun nümunəvi subyektinə çevirdi.

Bu inkişaf xəttinin məntiqi davamı olaraq, Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Hazırda muxtar respublikanın ölkə iqtisadiyyatına tam inteqrasiyasını və dayanıqlı artımı hədəfləyən bu proqram çərçivəsində genişmiqyaslı layihələr uğurla icra olunur. 2024-cü ilin dekabrında Naxçıvan-Sədərək avtomagistralı üzərində 310 hektar sahədə Naxçıvan Sənaye Parkının yaradılması, İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi və bölgənin "yaşıl enerji zonası" elan edilməsi muxtar respublikanın sənaye və enerji potensialını keyfiyyətcə daha yüksək pilləyə qaldırır.

Dövlətimizin başçısının muxtar respublikaya ardıcıl səfərləri də inkişaf dinamikasının əyani təzahürüdür. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2026-cı il avqustun 11-də Naxçıvana növbəti səfəri xüsusi siyasi və geostrateji əhəmiyyət kəsb edir. Avqustun 11-də Azərbaycan Televiziyasına müsahibə verən Prezident İlham Əliyev Naxçıvanın Azərbaycan dövlətçiliyindəki rolunu yüksək qiymətləndirərək bildirib ki, xalqımız öz tarixi, mədəniyyəti və görkəmli şəxsiyyətləri ilə fəxr edə bilər: "Naxçıvan, eyni zamanda Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib".

Naxçıvana 17-ci dəfə səfər etdiyini vurğulayan Prezident İlham Əliyev müsahibəsində muxtar respublikada görülən işləri və gələcək hədəfləri diqqətə çatdırıb: "Əslində, səfərim və səfər zamanı iştirak etdiyim tədbirlər özlüyündə bir göstəricidir. Bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir. Qeyd etdiyiniz kimi, mən Prezident kimi 17-ci dəfədir ki, Naxçıvana səfər edirəm və hər səfərimin də böyük mənası və gözəl nəticələri vardır. Bu illər ərzində bir çox önəmli layihələr icra olundu, Naxçıvanın ümumi inkişafı təmin edildi. Bugünkü tədbirlər də bir növ görülən işlərin davamıdır və təbii ki, bundan sonra da lazımi qərarlar veriləcək və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı təmin ediləcək".

Dövlətimizin başçısı müsahibəsində, eyni zamanda Naxçıvanın müdafiə potensialının gücləndirilməsinin hər zaman prioritet olduğunu xatırladaraq muxtar respublikanın hərbi gücünün, ən müasir texnikalarla təchizatının və yeni komando qüvvələrinin yaradılmasının Silahlı Qüvvələrimizin ümumi qüdrətinin tərkib hissəsi olduğunu bəyan edib.

Son illərdə Naxçıvanla bağlı reallaşdırılan ardıcıl tədbirlər artıq öz makroiqtisadi və sosial nəticələrini verməkdədir. 2023-2026-cı illər ərzində Naxçıvanda 359 yeni istehsal və xidmət sahəsi yaradılıb, sahibkarlıq subyektlərinə milyonlarla manat güzəştli kreditlər ayrılıb. Bu addımlar ümumi daxili məhsulun real artımına, investisiyaların dəfələrlə çoxalmasına və muxtar respublika büdcəsinin gəlirlərinin yüksələrək mərkəzi büdcədən asılılığının kəskin azalmasına gətirib çıxarıb.

Bununla yanaşı, 2026-cı il martın 10-da Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında edilən dəyişikliklər idarəetmə strukturunu müasirləşdirərək çevik və səmərəli idarəetmə modelinin hüquqi bazasını formalaşdırıb. Bununla yanaşı, Naxçıvanın iqtisadi cəlbediciliyini artırmaq üçün tətbiq edilən güzəştlər də xüsusi qeyd olunmalıdır. 2026-cı il yanvarın 1-dən etibarən muxtar respublika rezidentlərinin 10 il müddətinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, eləcə də gömrük rüsumlarından azad edilməsi regiona yerli və xarici investisiyaların axınını stimullaşdırır.

Dövlətimizin başçısının avqustun 12-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncam da strateji inkişaf kursunun davamlılığını bir daha təsdiqləyir. Sənədə əsasən, muxtar respublikada bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, yol, nəqliyyat, təhsil və mənzil-kommunal infrastrukturunun yenilənməsi məqsədilə dövlət və muxtar respublika büdcələrindən ümumilikdə 258 milyon manat vəsait ayrılıb. Bu istiqamətdə həyata keçirilən layihələr Naxçıvanın müasir çöhrəsini daha da gözəlləşdirməklə yanaşı, əhalinin rifahının yüksəlməsinə birbaşa xidmət edəcək.

Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə yaxın dönəmdə reallaşacaq Zəngəzur dəhlizi, habelə Qars-İğdır-Naxçıvan dəmir yolu xətti muxtar respublikanı illərlə davam edən kommunikasiya təcridindən tamamilə qurtaracaq. Zəngəzur dəhlizi Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə quru yolla birləşdirməklə yanaşı, regionu Avrasiyanın mühüm nəqliyyat və logistika qovşağına çevirəcək.

Nəticə etibarı ilə Ümummilli Lider Heydər Əliyevin qoruduğu, Prezident İlham Əliyevin yeni tarixi mərhələyə yüksəltdiyi Naxçıvan bu gün özünün ən qüdrətli dönəmini yaşayır. Bir zamanlar blokada çətinlikləri ilə üz-üzə qalan bu strateji diyarımız indi irimiqyaslı infrastrukturu, güclü sənayesi, "yaşıl enerji" potensialı və müasir idarəetmə modeli ilə gələcəyə inamla addımlayır. Dövlətimizin başçısının uzaqgörən rəhbərliyi sayəsində Naxçıvan bundan sonra da yeni-yeni uğurlara imza ataraq Azərbaycanın sosial-iqtisadi və geostrateji qüdrətinin sarsılmaz qalası olaraq qalacaq.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Günəşdən işığa: Naxçıvanın "yaşıl enerji" hədəfləri

**Naxçıvan Muxtar Respublikasının iqtisadi mənzərəsində yeni bir istiqamət getdikcə daha aydın görünür. Bu, yalnız enerji istehsalının artırılması deyil, təbii imkanların iqtisadi gücə çevrilməsi, bölgənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və gələcək inkişaf modelinin daha dayanıqlı əsaslar üzərində qurulmasıdır. Söhbət Naxçıvanın "yaşıl enerji" potensialından gedir.**

Günəşli günlərin çoxluğu, dağlıq relyef, əlverişli təbii-coğrafi şərait Naxçıvana bərpaolunan enerji mənbələrindən geniş istifadə üçün ciddi üstünlüklər verir. Son illər bu istiqamətdə atılan addımlar göstərir ki, söhbət ayrı-ayrı günəş və külək stansiyalarının tikintisindən getmir. Qarşıya daha böyük hədəf qoyulub: bərpaolunan enerji istehsalını müasir elektrik şəbəkəsi ilə əlaqələndirmək, enerji sistemini gücləndirmək, yeni investisiyalara yol açmaq və muxtar respublikanın iqtisadi inkişafını enerji imkanları ilə daha sıx bağlamaq.

Bu baxımdan, Prezident İlham Əliyevin Naxçıvana səfəri zamanı bölgənin iqtisadi potensialı ilə yanaşı, enerji imkanlarının da diqqət mərkəzində olması təsadüfi deyil. Çünki bölgənin gələcək iqtisadi xəritəsində günəşin, küləyin və suyun yaratdığı enerji təkcə elektrik demək deyil. Bu, yeni istehsal sahələri, investisiya imkanları, məşğulluq, texnoloji yenilənmə və nəhayət, regionun Azərbaycanın enerji strategiyasında daha mühüm mövqeyə yüksəlməsi deməkdir.

Naxçıvanda "yaşıl enerji" ilə bağlı proseslər artıq ideya və perspektiv mərhələsindən çıxaraq konkret layihələr müstəvisinə keçib. Bu gün bölgənin enerji xəritəsində görünən ən mühüm yeniliklərdən biri ümumi gücü 50 MVt olan "Şəms 1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarının yaradılmasıdır. Prezident İlham Əliyevin avqustun 11-də bu stansiyalarda görülən işlərlə tanış olması da layihələrin Naxçıvanın gələcək iqtisadi inkişafı baxımından daşıdığı əhəmiyyəti göstərir. 25 MVt gücündə olan "Şəms 1" layihəsi bərpaolunan enerji mənbələri ərazisində ayrılmış 52 hektarlıq sahəni əhatə edir. Layihəni həyata keçirən "CEİ Naxçıvan" MMC tərəfindən artıq 10 MVt gücündə günəş panellərinin quraşdırılması başa çatdırılıb. Tikinti-quraşdırma işlərinin cari ilin noyabrında yekunlaşdırılması, şəbəkə infrastrukturunun inşası tamamlandıqdan sonra isə stansiyanın istismara verilməsi nəzərdə tutulur. Hazırda layihənin icrasına 218 nəfər cəlb olunub.

Stansiyanın fəaliyyətə başlaması ilə onun hər il təxminən 57 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcəyi gözlənilir. Bu həcm təqribən 19 min ev təsərrüfatının enerji təminatına bərabərdir. Lakin layihənin əhəmiyyəti yalnız istehsal olunacaq elektrik enerjisinin miqdarı ilə ölçülmür. Günəş enerjisindən istifadənin genişlənməsi eyni zamanda təbii qaz sərfiyyatının və karbon emissiyalarının azalmasına imkan verəcək. Belə ki, "Şəms 1"in istismara verilməsi ilə il ərzində təxminən 26 min ton karbon qazı emissiyasının qarşısının alınması və 12 milyon kubmetr təbii qaza qənaət edilməsi planlaşdırılır.

Naxçıvanda bərpaolunan enerjiyə keçidin daha bir mühüm ünvanı gücü 25 MVt olan "Qərbi Üfüq" layihəsi 50 hektarlıq sahədə reallaşdırılacaq. Stansiyanın istismara verilməsi ilə hər il təxminən 61 milyon kilovat-saat elektrik enerjisinin istehsalı mümkün olacaq. Bu isə 21 minə yaxın ev təsərrüfatının enerji təminatına töhfə deməkdir. Layihə digər bir səbəbdən də əhəmiyyətlidir. Günəş enerjisindən istifadə nəticəsində hər il təxminən 26 min ton karbon qazı emissiyasının qarşısının alınacağı, eyni zamanda 12 milyon kubmetr təbii qaza qənaət ediləcəyi gözlənilir. Beləliklə, "Qərbi Üfüq" həm enerji təminatının şaxələndirilməsinə, həm də ətraf mühitin qorunmasına xidmət edəcək.

Əslində, Naxçıvanın "yaşıl enerji" yolunun başlanğıcı daha əvvələ gedib çıxır. Belə ki, 2023-cü ildə keçirilən Bakı Enerji Həftəsi çərçivəsində Naxçıvanın və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialına həsr olunmuş xüsusi sessiyada mühüm sənədlər imzalanıb. "Nobel Energy Management" şirkəti ilə Naxçıvanda 400 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi və burada istehsal olunacaq elektrik enerjisinin Türkiyəyə ixracı ilə bağlı əməkdaşlıq memorandumu imzalanıb. Eyni tədbirdə "TotalEnergies" ilə Naxçıvanda 250 MVt gücündə günəş-elektrik stansiyaları, həmçinin enerji saxlanc sistemləri üzrə əməkdaşlığı nəzərdə tutan sənəd imzalanıb. Bu rəqəmlərin arxasında isə sadəcə meqavatlar dayanmır. 400 və ya 250 MVt-lıq layihə yeni enerji istehsalı ilə yanaşı, yeni infrastruktur, investisiya, tikinti, texnologiya və xidmət sahələri deməkdir. Günəş-elektrik stansiyalarının ətrafında formalaşacaq iqtisadi fəaliyyət Naxçıvanda məşğulluğun artmasına, texniki və mühəndislik ixtisaslarına tələbin yüksəlməsinə, yeni xidmət sektorlarının yaranmasına da zəmin yaradacaq. Bundan başqa, enerji təminatı sənaye müəssisələrinin, emal sahələrinin, kənd təsərrüfatı və logistika obyektlərinin fəaliyyət imkanlarını da genişləndirə bilər. Yəni günəş panellərindən alınan elektrik yalnız şəbəkəyə verilən enerji deyil, Naxçıvan iqtisadiyyatının müxtəlif sahələrinə ötürülən yeni inkişaf impulsudur.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində muxtar respublikanın enerji potensialından səmərəli istifadə edilməsinin və "yaşıl enerji" layihələrinin həyata keçirilməsinin qarşıdakı dövr üçün mühüm istiqamətlərdən biri olduğunu vurğulayıb. Dövlət başçısının müsahibəsində səsləndirdiyi fikirlər Naxçıvanın enerji sahəsində qarşısında duran məqsədlərin miqyasını və bu istiqamətin regionun gələcək inkişafındakı rolunu daha aydın göstərir: "Naxçıvanda günəş enerjisinin potensialı çox böyükdür. Aparılan monitorinq və dəqiq təhlil əsasında günəş-elektrik enerjisinin istehsalı üçün Azərbaycan ərazisində ən əlverişli məkan Naxçıvandır. Buna görə artıq 600 hektardan çox ərazi müəyyən edildi və orada yüzlərlə meqavat gücündə günəş-elektrik stansiyaları inşa ediləcək. Sevindirici hal ondan ibarətdir ki, bizdə bərpaolunan enerji növlərinin yaradılması ilə bir qayda olaraq, özəl sektor məşğuldur. Mənə bu gün təqdim edilən məlumat onu göstərir ki, bu layihələr iqtisadi cəhətdən, yəni gəlirlilik nöqteyi-nəzərindən investorlar üçün cəlbedicidir".

Prezidentin bu fikirləri Naxçıvanın günəş enerjisi sahəsindəki üstünlüyünün yalnız təbii potensialla məhdudlaşmadığını, artıq iqtisadi cəlbedicilik amilinə çevrildiyini göstərir. Başqa sözlə, Naxçıvanın günəşli günləri təkcə təbiətin bəxş etdiyi üstünlük deyil, həm də investor üçün real iqtisadi imkan yaradan resursdur. Diqqətçəkən məqamlardan biri də "yaşıl enerji" layihələrində özəl sektorun fəal iştirakıdır. Bu, bərpaolunan enerji sahəsinin dövlət investisiyaları ilə yanaşı, biznes üçün də perspektivli istiqamətə çevrildiyini göstərir. İnvestorların marağının artması isə yeni layihələrin reallaşmasına, enerji infrastrukturunun genişlənməsinə və Naxçıvanda bu sahə ətrafında yeni iqtisadi fəaliyyətlərin formalaşmasına imkan yaradır.

Başqa sözlə, Naxçıvanın "yaşıl enerji" yolunda atdığı hər addım onun iqtisadi gələcəyinə yönələn daha bir irəliləyiş olacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Naxçıvan türk dünyasının birləşdirici məkanına çevriləcək



**Cənubi Qafqazın hərbi-siyasi, hüquqi və geoiqtisadi arxitekturası Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən strateji dövlətçilik xətti nəticəsində köklü və dönməz transformasiya dövrünü yaşayır. Azərbaycan yeni dövlətçilik konsepsiyası, xüsusilə Vətən müharibəsində qazanılmış Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal antiterror tədbirləri ilə suverenliyinin tam bərqərar olunmasından sonra regionun yalnız təhlükəsizlik paradiqmasını deyil, həm də transkontinental kommunikasiya, geoiqtisadiyyat və hüquq xəritəsini yenidən müəyyənləşdirib. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Naxçıvan Muxtar Respublikasına səfərləri məhz bu prizmadan regionun yaxın və uzaq perspektivdəki inkişaf trayektoriyasını müəyyənləşdirən tarixi dönüş nöqtəsidir.**



**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, bu səfər sadəcə cari infrastruktur obyektlərinin açılışı və ya təməlqoyma mərasimi xarakteri daşımır, muxtar respublikanın unifikasiya olunmuş dövlət idarəçiliyinə keçidini, geoiqtisadi mərkəzə çevrilməsini və milli təhlükəsizlik arxitekturasındakı yerini tam təsbit edir: "Prezident İlham Əliyevin yaratdığı yeni inkişaf paradiqması, qəbul edilən xüsusi dövlət proqramları və birbaşa diqqəti sayəsində Naxçıvan özünün infrastruktur, sənaye, "yaşıl enerji" və nəqliyyat potensialını maksimum reallaşdıraraq Ulu Öndərin arzuladığı qüdrətli, təhlükəsiz və çiçəklənən diyara çevrilib. Vətən müharibəsində və antiterror əməliyyatlarında düşmənin hərbi maşınının darmadağın edilməsi, işğal altında olan 132 kilometrlik Arazboyu dövlət sərhədinin tam nəzarətə götürülməsi Naxçıvanın şərq cinahında illərlə mövcud olan birbaşa təhlükəsizlik risklərini və hərbi spilover təhdidlərini sıfıra endirib. Müzəffər Ali Baş Komandanın yaratdığı bu yeni hərbi-siyasi reallıq Naxçıvanın milli müdafiə sistemini Azərbaycanın vahid təhlükəsizlik arxitekturası ilə üzvi şəkildə birləşdirib. Milli təhlükəsizlik və hərbi doktrina müstəvisində Naxçıvanın geostrateji konfiqurasiyası - ölkənin əsas ərazisi ilə birbaşa quru bağlantısının olmamasından irəli gələn eksklav spesifikası onun müdafiə konsepsiyasının daim ən yüksək operativ-taktiki hazırlıq səviyyəsində saxlanılmasını imperativ tələb kimi qarşıya qoyur. Məhz Ali Baş Komandan İlham Əliyevin xüsusi tapşırığı və birbaşa diqqəti ilə Əlahiddə Ümumqoşun Ordunun yaradılması, onun müasir komando strukturları ilə zənginləşdirilməsi və son nəsil hərbi-texniki arsenal, o cümlədən yüksəkdəqiqlikli raket-artilleriya və havadan müdafiə sistemləri ilə təchiz olunması yalnız muxtar respublikada yox, bütövlükdə, Azərbaycan Silahlı Qüvvələrinin çevik müdafiə və çəkindirmə imkanlarını mütləq səviyyəyə çatdırıb. Bu mənada Əlahiddə Ümumqoşun Ordunun yeni yaradılmış Əməliyyat hərbi hissələrinə döyüş bayraqlarının təqdim edilməsi dövlət başçısının Naxçıvanın müdafiə qabiliyyətinə verdiyi müstəsna prioritetin bariz təzahürüdür".

Deputat qeyd edib ki, Vətən müharibəsində özünü tam doğruldan və mürəkkəb dağlıq relyefdə operativ döyüş tapşırıqlarını maksimum dəqiqliklə icra edən komando konsepsiyasının muxtar respublikada genişləndirilməsi regionda strateji çəkindirmə gücünü artırır. Naxçıvanın hərbi infrastrukturunun rəqəmsallaşdırılması və xüsusi təyinatlı qüvvələrlə möhkəmləndirilməsi "Naxçıvan Qalası" strateji konsepsiyasını daha da sarsılmaz edərək, istənilən xarici asimmetrik riskləri tam sığortalayır və Cənubi Qafqazda sülhün, sabitliyin və strateji güc balansının Azərbaycanın xeyrinə saxlanılmasında həlledici rol oynayır. Məhz dövlət başçısının konseptual doktrinası əsasında Naxçıvan təkcə unitar dövlət quruluşunun lokallaşdırılmış inzibati-ərazi vahidi kimi deyil, Cənubi Qafqaz, Yaxın Şərq və Mərkəzi Asiya geoiqtisadi areallarının kəsişməsində yerləşən xüsusi geostrateji, enerji və multi-modal nəqliyyat-logistika habı kimi idarə olunmağa başlanıb.

Bəhruz Məhərrəmov bildirib ki, Ermənistanla dövlət sərhədinə doğru uzanan 7 kilometrlik dəmir yolu xəttində tikinti işlərinə başlanılması məhz Azərbaycanın beynəlxalq hüququndan doğan tranzit hüquqlarını de-fakto icra etdiyini sübut edir: "Bundan başqa, 194,2 kilometrlik Naxçıvan dəmir yolu şəbəkəsinin tam yenidən qurulması, illik yükaşırma qabiliyyətinin 15 milyon tona çatdırılması və layihəyə xarici investorları cəlb edəcək konsorsium modelinin təklif olunması milli maraqlarla qlobal kapitalın mükəmməl hüquqi-iqtisadi sintezi olsa da, prosesdə nəzarət paketinin Azərbaycan dövlətində qalması istiqamətində cənab İlham Əliyevin qəti mövqeyi hüquqi suverenliyin və milli təhlükəsizliyin dəyişməz prioritet kimi qaldığını göstərir. Sədərəkdən Türkiyənin Qars-İğdır-Dilucu xəttinə inteqrasiya planı Naxçıvanı onilliklər boyu davam edən təcrid olunmuş blokada subyekti statusundan çıxararaq "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat arteriyalarının, xüsusən Mərkəzi Asiya, Azərbaycan və Türkiyəni birləşdirən Orta dəhlizin əsas logistik qovşağına yüksəldir. Azad İqtisadi Zonanın və müasir tədarük-logistika habının təməlinin qoyulması, Sədərək, Culfa və Poldəşt/Şahtaxtı keçid məntəqələrində gömrük prosedurlarının rəqəmsallaşdırılaraq "yaşıl dəhliz" rejiminin tətbiqi, habelə Naxçıvan Beynəlxalq Hava Limanının Karqo terminalının genişləndirilməsi avtomobil və dəmir yolu xətlərinin inteqrasiyası yükdaşımaların maya dəyərini və vaxtını kəskin azaldacaq. Zəngəzur dəhlizi təkcə avtomobil və dəmir yollarını deyil, həm də yüksək gərginlikli elektrik ötürücü xətlərini, fiber-optik kommunikasiya infrastrukturlarını və gələcək boru kəmərlərini özündə birləşdirən multi-modal geoiqtisadi arteriyadır. Nəticə etibarilə Türkiyə, İran və Ermənistanla həmsərhəd olan muxtar respublika təxminən 200 milyonluq əhalisi olan nəhəng bir regional bazara birbaşa çıxış imkanı qazanacaq. Bu proses BMT Konvensiyaları və beynəlxalq tranzit hüququ çərçivəsində regionun iqtisadi suverenliyinin tam bərpası və Avrasiyada nəqliyyat xəritəsinin Azərbaycanın xeyrinə yenidən cızılması deməkdir".

Deputatın sözlərinə görə, enerji təhlükəsizliyi, resurs idarəçiliyi və "yaşıl enerji"yə keçid sahəsində Naxçıvanda həyata keçirilən transformasiya isə muxtar respublikanı xarici asılılıqdan tam azad edərək net-ixracatçı mərkəzə çevirməkdədir. Vaxtilə həyata keçirilən qaz svop sazişləri və daxili qazlaşdırmanın 100 faizə çatdırılması fiziki enerji təhlükəsizliyini təmin etmişdisə, hazırda 300 meqavatlıq yeni istilik-elektrik stansiyasının, ümumi gücü 50 MVt olan "Şəms 1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarının inşası bərpaolunan enerji payını 158 MVt-a yüksəldib. Tam əminliklə demək olar ki, Naxçıvanın "Yaşıl Enerji Zonası" elan olunması regionun iqtisadi simasını dəyişən əsas drayverlərdən biridir. Muxtar respublikanın yüksək günəş radiasiyası və külək potensialı nəzərə alınaraq, burada bərpaolunan enerji mənbələri üzrə irimiqyaslı günəş və külək-elektrik stansiyalarının tikintisinin həyata keçirilməsi, bu layihələrin təkcə ekoloji baxımdan illik 52 min ton karbon qazı emissiyasının qarşısını almaqla kifayətlənməyərək, həm də 24 milyon kubmetr təbii qaza qənaət etməyə imkan yaratması daxili iqtisadi səmərəliliyi maksimallaşdırır. Prezident İlham Əliyevin müsahibəsində günəş enerjisi potensialının 500-1000 meqavat həcmində qiymətləndirilməsi və mərhələli şəkildə batareya saxlanc sistemlərinin qurulması Naxçıvanı Türkiyə, İran və nəhayət, Avropa bazarlarına "yaşıl elektrik enerjisi" nəql edən transregional enerji dəhlizinə çevirməklə, bu böyük transformasiya "Xəzər-Avropa yaşıl enerji dəhlizi" və "Qara dəniz kabeli" kimi qlobal layihələrlə tam uzlaşaraq Azərbaycanın planetar miqyaslı enerji siyasətinə birbaşa töhfə verir. "Dövlət başçısının Naxçıvana səfəri zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirdiyi strateji fikirlər muxtar respublikanın gələcək inkişaf paradiqmasını aydın şəkildə ehtiva edir. Prezident İlham Əliyevin regionun gələcək inkişaf vektorunu xarakterizə edərək Naxçıvanın gələcək inkişafı ilə bağlı çox aydın təsəvvür və konseptual proqramlarımızın olduğunu deməsi, muxtar respublikanı Avrasiyanın ən müasir nəqliyyat, logistika və "yaşıl enerji" mərkəzlərindən birinə çevirməkdə qərarlılıq ifadə edilməsi, əslində, dövlət başçısının bu istiqamətdə çox aydın, regional inteqrasiya və iqtisadi sıçrayışın dayanıqlılığını təmin edəcək yol xəritəsinə malik olduğunu göstərdi. Düstur isə çox sadədir - "Həyata keçirilən institusional islahatlar, yaradılan azad iqtisadi zona və bərpaolunan enerji layihələri Naxçıvanın iqtisadi müstəqilliyini sarsılmaz edəcək, buraya böyük investisiya axınını təmin edəcəkdir". Məhz bu çərçivədə iqtisadiyyatın şaxələndirilməsi, sənaye potensialının artırılması və daxili resursların optimallaşdırılması müstəvisində 310 hektar sahəni əhatə edən Naxçıvan Sənaye Parkının təməlinin qoyulması regionun istehsal imkanlarını kökündən dəyişdirəcək. Bu iqtisadi sıçrayışın və xarici və daxili investisiya axınının hüquqi zəminini dövlət başçısının qərarları ilə tətbiq edilən vergi, gömrük və sosial sığorta imtiyazları təşkil edir", - deyə o əlavə edib.

B.Məhərrəmov vurğulayıb ki, dövlət siyasətinin və həyata keçirilən bütün institusional islahatların mərkəzində ali konstitusion məqsəd və niyyətlərimizə, habelə Prezident İlham Əliyev siyasətinə müvafiq olaraq bilavasitə insan amili, sosial ədalət və vətəndaşların rifahı dayanır. Naxçıvan Regional DOST Mərkəzinin açılışı, 518 mənzilli Sosial Evlər kompleksinin təməlinin qoyulması, şəhər ictimai nəqliyyatının ekoloji baxımdan təmiz BYD markalı elektrik avtobusları ilə yenilənməsi və 420 kilometrlik yol şəbəkəsinin bərpa olunması da məhz ilk növbədə vətəndaşların sosial-hüquqi rifahına xidmət edir. Eyni zamanda iqlim dəyişiklikləri və regional su qıtlığı fonunda Naxçıvanda irriqasiya sistemlərinin yenidən qurulması, magistral kanalların modernləşdirilməsi, damcılı və çiləmə sistemlərinə keçidin təşviq edilməsi, Araz və Arpaçay su resurslarından istifadənin optimallaşdırılması, subartezian quyularının bərpası və şoranlaşmış torpaqların təsərrüfat dövriyyəsinə qaytarılması regionda aqrar sektorun dayanıqlılığını və ərzaq təhlükəsizliyini etibarlı şəkildə təmin edir.

Deputat bildirib ki, müasir şəhərsalma, ekologiya və mədəni irsin qorunması strategiyası da dövlət başçısının xüsusi diqqət mərkəzindədir: "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair yeni baş planı şəhərin məskunlaşma ərazisinin 44 faiz genişləndirilməsini, adambaşına düşən yaşayış sahəsinin 30 kvadratmetrə, yaşıllıq zonasının isə 27 kvadratmetrə çatdırılmasını hədəfləyir. "Chapman Taylor" beynəlxalq şirkətinin iştirakı ilə hazırlanan bu plan Naxçıvanı müasir "Smart City" standartlarına tam uyğunlaşdırır. Prezident İlham Əliyevin rəhbərliyi altında, Mehriban xanım Əliyevanın birbaşa nəzarətində reallaşan prosesin ən diqqətçəkən tərəfi odur ki, modernləşmə milli ruh, milli kimlik və tarixi köklərlə sıx şəkildə bağlıdır. Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin 900 illik yubileyi çərçivəsində abidəsinin ucaldılması və Möminə xatun türbəsinin beynəlxalq bərpa standartlarına uyğun olaraq Avstriya mütəxəssisləri tərəfindən konservasiya olunması Azərbaycan dövlətinin öz milli-mədəni köklərinə, UNESCO səviyyəsində qorunan irsinə sahib çıxdığının aydın nümunəsidir. Görünən odur ki, Naxçıvan Muxtar Respublikası məhz cənab İlham Əliyevin Ulu Öndər kursuna əsaslanan müdrik siyasəti nəticəsində onilliklərin blokada çətinliklərindən tam çıxaraq türk dünyasının birləşdirici qapısına, Avrasiyanın nəqliyyat, logistika və "yaşıl enerji" mərkəzinə, eləcə də müasir şəhərsalma və sosial rifah modelinə çevrilərək, bütöv Azərbaycanın qüdrətini və regionun dinc, təhlükəsiz gələcəyini simvolizə edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Hərbi zəfərdən geoiqtisadi üstünlüyə

## Muxtar respublika müasir nəqliyyat-logistika infrastrukturunun qurulması ilə regional iqtisadiyyatın mərkəzi ünvanına çevrilir

**Cənubi Qafqazın hərb və diplomatiya xəritəsini yenidən cızan 44 günlük Vətən müharibəsi işğala son qoymaqla yanaşı, həm də illərdir təcrid şəraitində qalan Naxçıvan Muxtar Respublikasının geosiyasi taleyində əsaslı dönüş yaratdı. Tarixi sınaqlardan, uzunmüddətli blokadanın çətinliklərindən məğrur çıxan bu qədim türk yurdu, məhz Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlar sayəsində indi Avrasiyanın ən mühüm geoiqtisadi qovşaqlarından birinə çevrilir. Döyüş meydanında qazanılan zəfər, diplomatiya masasında Zəngəzur dəhlizi (TRIPP) layihəsi kimi transmilli təşəbbüslərlə möhkəmləndirilərək Naxçıvanın tarixi missiyasını bərpa edir.**

### İqtisadi maraqların kəsişdiyi mərkəz

Naxçıvanın strateji əhəmiyyəti onun coğrafi yerləşməsindən və tarixi rolundan qaynaqlanır. Türkiyə, İran və Ermənistan kimi üç fərqli dövlətlə həmsərhəd olan bu məkan, əsrlər boyu Avropa ilə Asiyanı birləşdirən qədim İpək yolunun strateji qapısı olub. Ancaq zamanın hərbi-siyasi burulğanlarında ana torpaqdan ayrı düşməsinə və dəhlizlərin qapanmasına baxmayaraq, Naxçıvan öz coğrafi çəkisini heç vaxt itirməyib. Bu gün isə həmin coğrafi üstünlük müasir nəqliyyat-logistika infrastrukturunun qurulması ilə yenidən qlobal iqtisadiyyatın mərkəzi ünvanına çevrilir. 200 milyonluq böyük bir regional bazara birbaşa çıxış imkanı əldə edən muxtar respublika, regional güclərin və qlobal aktorların iqtisadi maraqlarının kəsişdiyi mərkəz statusunu qazanır.

Avqustun 11-də Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində də vurğuladı ki, döyüş meydanında əldə edilən nəticələr diplomatik masada öz təsbitini tapdı: "Bildiyiniz kimi, Zəngəzur dəhlizinin yaradılması bizim təşəbbüsümüz idi. Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz idi. Biz bu məqsədə doğru inamla və məharətlə irəlilədik və artıq ona yaxınlaşmışıq".

Gerçəklikdir ki, Zəngəzur dəhlizinin açılması təkcə nəqliyyat məsələsi deyil, həm də tarixi ədalətin və təhlükəsizliyin bərpası anlamına gəlir. Dəmir yolları, logistika mərkəzləri və transmilli iqtisadi layihələr vasitəsilə təmin edilən bu yeni reallıq Naxçıvanı dünyaya geoiqtisadi baxımdan əvəzolunmaz məkan kimi qəbul etdirir. Eyni zamanda bu hal bütün regionun gələcək sabitliyi və rifahının etibarlı zəmanətinə çevrilir.

Bu isə Azərbaycan Prezidentinin həm müharibədə qələbə qazanan sərkərdə, həm də regiona uzunmüddətli sülh və iqtisadi inteqrasiya gətirən müdrik lider kimi adını tarixə yazdırmasının əyani təsdiqidir.

Postmüharibə dövründə Ermənistanın öhdəliklərdən yayınmaq və prosesi ləngitmək cəhdlərinə baxmayaraq, Bakının sərgilədiyi qətiyyətli mövqeyi uğurlu nəticə verdi.

Faktdır ki, İkinci Qarabağ müharibəsindən sonrakı beş il ərzində Zəngəzur dəhlizinin açılması üçün heç bir əməli addım atılmadı və məsələ ötən ilin avqust ayına qədər dondurulmuş vəziyyətdə qaldı. Lakin Azərbaycanın qətiyyətli siyasəti və ABŞ-nin vasitəçiliyi ilə 8 avqust 2025-ci ildə keçirilən tarixi Vaşinqton Zirvəsi bu ləngiməyə son qoydu. Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq bu layihə Orta dəhlizin ən mühüm halqasına çevrilərək Avrasiya nəqliyyat şəbəkəsini yenidən formalaşdırır.

Vaşinqton Zirvəsində əldə olunmuş razılaşmalar və TRIPP layihəsinin təsdiqlənməsi döyüş meydanında qazanılan zəfərin diplomatik masada təsbit olunmasının parlaq sübutudur.

Prezident İlham Əliyevin cari ilin 8 avqustunda ABŞ Prezidenti Donald Trampla telefon söhbəti zamanı və ona ünvanladığı məktubda vurğuladıqları layihənin strateji çəkisini tam aydınlığı ilə gözlər önünə sərir: "TRIPP layihəsi Cənubi Qafqazda çoxtərəfli iqtisadi əməkdaşlığın, nəqliyyat bağlantılarının inkişafı və təhlükəsizliyin təminatı baxımından böyük əhəmiyyət kəsb edir".

### Qlobal logistikanın yeni ünvanı

İndiyədək Mərkəzi Asiya və Xəzər hövzəsindən Avropaya doğru yönələn əsas yük axınları yalnız Gürcüstan üzərindən keçirdisə, Naxçıvan marşrutunun işə düşməsi ilə yüklərin daşınmasının böyük hissəsi bu yeni və daha qısa yola yönələcək. Naxçıvan eyni zamanda iki böyük transmilli dəhlizin - Orta dəhlizin və Şimal-Cənub dəhlizinin kəsişməsində yerləşir. Orta dəhliz Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa və effektiv dəmir yolu xəttidir. Şimal-Cənub dəhlizi isə Culfadan İrana, oradan qurulan xətlərlə Fars körfəzinə və Pakistana qədər uzanan strateji ticarət qoludur.

Dövlətimizin başçısı müsahibəsində Naxçıvanın unikal nəqliyyat imkanlarını belə xarakterizə etdi: "Zəngəzur dəhlizinin açılışından sonra Azərbaycandan İrana ikinci dəmir yolu xətti açılacaq. Zəngəzur dəhlizindən Naxçıvana girişi olan dəmir yolu və Culfa dəmir yolu stansiyasından İrana dəmir yolu var. Bu layihə daha tez həyata keçirilə bilər. "Şimal-Cənub" nəqliyyat dəhlizi Fars körfəzinə yönəlib. Oradan, məsələn, bu bölgəyə yaxın olan Pakistana qədər uzana bilər. Bu, Naxçıvanın mərkəzində olduğu çox vacib bir nəqliyyat layihəsi olardı".

Naxçıvan dəmir yolunun yükdaşıma gücünü 1,5 milyon tondan 15 milyon tona çatdırmaq üçün 194 kilometrlik yeni xətt layihələndirilib. Azərbaycan bu nəhəng layihəni öz daxili maliyyə imkanları ilə yekunlaşdırmağa tam qadirdir, lakin beynəlxalq tərəfdaşlığa da imkan yaradır.

"Naxçıvan Dəmir Yolunun bərpasına gəldikdə, prinsipcə beynəlxalq konsorsium yaradıla bilər. Əlbəttə ki, Azərbaycan dövlətinin nəzarət payı olduğu təqdirdə, beynəlxalq konsorsium investorlardan ibarət ola bilər və biz buna açığıq... ...Əgər kimsə bu layihədə iştirak etmək istəyirsə, vaxt itirməməli və mümkün qədər tez bizimlə danışıqlar aparmalıdır. Çünki bürokratik əngəllər və süründürməçilik bizim, Azərbaycan idarəetmə metodumuz deyil. Biz problemləri müəyyən edir, qərarlar qəbul edir və dərhal həyata keçirməyə başlayırıq", - deyə Prezident İlham Əliyev müsahibəsində qeyd edib.

İkinci Qarabağ müharibəsi başa çatan kimi dövlətimiz Naxçıvana aparan yolların tikintisinə başlayıb və Horadiz-Ağbənd avtomobil yolu demək olar ki, tamamlanıb.

Göründüyü kimi, Asiyadan Avropaya gedən ticarət yollarının kəsişməsində yerləşən Naxçıvan, öz tarixi missiyasını müasir dövrün tələblərinə uyğun olaraq bərpa edir.

Avropa İttifaqının və digər qlobal oyunçuların Naxçıvan seqmentinə göstərdiyi diqqət, bölgənin yaxın gələcəkdə yalnız nəqliyyat deyil, həm də ciddi investisiya və sənaye mərkəzinə çevriləcəyini göstərir. Keçmişin blokada şəraitindəki Naxçıvanı bu gün Prerzident İlham Əliyevin uzaqgörən hərbi və diplomatik strategiyası sayəsində Avrasiya qitəsinin əvəzolunmaz nəqliyyat qovşağına çevrilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

**Prezident İlham Əliyev Naxçıvana səfəri çərçivəsində Azərbaycan televiziyasına verdiyi müsahibədə mühüm mesajlar verdi. Dövlətimizin başçısı ölkəmizin sosial-iqtisadi inkişafından, strateji məsələlərdən, Naxçıvanın gələcək perspektivlərindən danışmaqla yanaşı, milli kimliyimizin əsasını təşkil edən tarixi-mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə və xalqımızın tarixi yaddaşına toxundu.**



# Naxçıvandan verilən mesaj: ölkənin tarixini qorumaq onun gələcəyini qurmaq deməkdir

Bu, heç də təsadüfi deyil. Dövlətin qüdrəti yalnız iqtisadi inkişaf və sosial rifahla məhdudlaşmır. Güclü dövlətin təməlində güclü ictimai şüur, milli ruh, tarixi yaddaş və mənəvi dəyərlər dayanır. Öz tarixini, mədəniyyətini, dilini, ədəbiyyatını və milli irsini qoruyan xalq gələcəyə daha inamla addımlayır. Prezident İlham Əliyevin siyasətinin mərkəzində bu yanaşmanın dayandığı aydın görünür. Dövlətimizin başçısı Azərbaycanın maddi inkişafı ilə yanaşı, xalqımızın mənəvi sərvətlərinin qorunmasına, tarixi abidələrimizin bərpasına və milli dəyərlərimizin gələcək nəsillərə çatdırılmasına xüsusi diqqət yetirir.

Sözsüz ki, Naxçıvan Azərbaycanın qədim dövlətçilik və mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı, xalqımızın tarixi yaddaşında mühüm iz qoymuş diyardır. Naxçıvan şəhəri qədim Atabəylər dövlətinin paytaxtı olub. Bu torpaq əsrlər boyu Azərbaycan memarlığının, elminin, mədəniyyətinin və dövlətçilik ənənələrinin inkişafında mühüm rol oynayıb. Burada yaradılmış tarixi-mədəni abidələrin hər biri xalqımızın keçmişindən bu gününə uzanan mənəvi körpüdür. Bu səbəbdən Prezident İlham Əliyevin Naxçıvanın tarixi-mədəni abidələrinin qorunmasına və bərpasına göstərdiyi diqqət xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan memarlıq sənətinin nadir incilərindən biri, Əcəmi Naxçıvaninin yaratdığı möhtəşəm memarlıq nümunəsi - Möminə xatun məqbərəsinin bərpası və qorunması yalnız bir tarixi abidənin yenilənməsi demək deyil, həm də xalqımızın öz tarixinə və mədəniyyətinə münasibətinin göstəricisidir. Əcəmi Naxçıvani kimi böyük memarın xatirəsinin əbədiləşdirilməsi isə xalqımızın öz böyük şəxsiyyətlərinə olan ehtiramının ifadəsidir. Tarixi yaradan şəxsiyyətləri yaşatmaq, onların əsərlərini gələcək nəsillərə çatdırmaq milli yaddaşımızın qorunması deməkdir.

Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi mühüm fikirlərdən biri milli kimlik məsələsi ilə bağlıdır. Dövlətimizin başçısının vurğuladığı kimi, sosial-iqtisadi inkişaf nə qədər vacib olsa da, görülən bütün işlərin təməlində milli kimliyimiz, ruhumuz, mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız və tariximiz dayanır. Milli kimlik yalnız bir xalqın hansı ərazidə yaşaması ilə müəyyən olunmur, eyni zamanda həmin xalqın əsrlər boyu formalaşdırdığı dəyərlərin, dilin, mədəniyyətin, adət-ənənələrin, tarixi yaddaşın və mənəvi irsin qorunması ilə ölçülür. Əgər xalq öz tarixini unudarsa, milli yaddaş zəifləyər, milli-mənəvi dəyərlər qorunmazsa, gələcək nəsillərlə keçmiş arasında bağ qırılar. Buna görə də tarixi abidələrin qorunması, qədim şəhərlərin və memarlıq nümunələrinin bərpası, görkəmli şəxsiyyətlərin irsinin yaşadılması dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır.

Ölkəmizdə son illər tarixi və mədəni irsin qorunması istiqamətində görülən işlər bu baxımdan diqqət çəkir. Bu gün Azərbaycan müasir, güclü və sürətlə inkişaf edən ölkədir. Həyata keçirilən böyük layihələr, iqtisadi inkişaf, enerji təhlükəsizliyinin təminatı, nəqliyyat və infrastruktur imkanlarının genişlənməsi Azərbaycanın gələcəyə doğru inamlı addımlar atdığını göstərir. Bu o deməkdir ki, maddi inkişafla mənəvi inkişafı bir-birindən ayırmaq mümkün deyil.

Müasir dövlət həm də öz milli dəyərlərinə sahib çıxan dövlətdir. Müasirlik milli kimlikdən uzaqlaşmaq yox, əksinə, milli kimliyi qoruyaraq dünyaya açılmaqdır. Azərbaycan bu iki istiqaməti bir-biri ilə uğurla uzlaşdırır. Prezident İlham Əliyevin Naxçıvana səfəri zamanı tarixi-mədəni abidələrin qorunması məsələsinə xüsusi diqqət yetirməsi də bunun bariz nümunəsidir.

Naxçıvan haqqında danışarkən bu qədim torpağın xalqımıza bəxş etdiyi böyük şəxsiyyətləri xatırlamamaq mümkün deyil. Bu diyar Azərbaycana Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyət bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsi müasir Azərbaycan tarixinin mühüm səhifələrindəndir. Ulu Öndərin həyat və fəaliyyəti Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli şüurun inkişafı və xalqımızın milli-mənəvi dəyərlərinin qorunması ilə sıx bağlıdır. Bu gün Heydər Əliyevin siyasi irsinin davam etdirilməsi elə Azərbaycanın inkişafı deməkdir.

Amma milli-mənəvi dəyərlərin qorunması yalnız dövlətin işi deyil, bu, hər bir Azərbaycan vətəndaşının mənəvi məsuliyyətidir. Dövlət tarixi abidələri bərpa edə, mədəniyyət ocaqları yarada, milli irsin qorunması üçün layihələr həyata keçirə bilər. Lakin həmin irsin yaşadılması üçün xalqın öz tarixini bilməsi, dilinə, mədəniyyətinə və mənəvi dəyərlərinə hörmət etməsi olduqca vacibdir. Bu gün bizdən sonra gələcək nəsillərə yalnız inkişaf etmiş Azərbaycan deyil, həm də tarixini bilən, milli ruhunu qoruyan, öz köklərinə bağlı Azərbaycan miras qoymaq tələb olunur. Möminə xatun məqbərəsi də, Əcəmi Naxçıvaninin yaradıcılığı da, Naxçıvanın qədim dövlətçilik və mədəniyyət tarixi də bizə bunu xatırladır - ölkənin tarixini qorumaq onun gələcəyini qurmaqdır.

Dövlətimizin başçısı İlham Əliyevin Naxçıvana səfəri zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibədə milli kimlik, ruh, tarix və mədəniyyət haqqında səsləndirdiyi fikirlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu fikirlər bir daha göstərir ki, Azərbaycan dövlətinin inkişaf strategiyasında maddi tərəqqi ilə milli-mənəvi dəyərlər bir-birini tamamlayır. Güclü iqtisadiyyat, müasir infrastruktur və böyük layihələrlə yanaşı, tariximizə, dilimizə, mədəniyyətimizə, ədəbiyyatımıza və milli yaddaşımıza sahib çıxmaq da dövlətimizin siyasətinin əsas prioritetidir. Biz tariximizlə, mədəniyyətimizlə və böyük şəxsiyyətlərimizlə fəxr edə bilərik. Lakin fəxr etmək kifayət deyil, onları qorumaq, öyrənmək və gələcək nəsillərə çatdırmaq lazımdır ki, bunlar da bizim müqəddəs borcumuz olmalıdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Qələbədən yeni inkişaf coğrafiyasına: Naxçıvan Azərbaycanın strateji baxışında

**Böyük tarixi qələbələrin miqyası yalnız onların əldə edildiyi anda qazandırdığı nəticələrlə ölçülmür. Belə qələbələrin həqiqi əhəmiyyəti zaman keçdikcə, siyasi nəticələr iqtisadi coğrafiyanı dəyişdirdikdə, yeni marşrutlar açdıqda və inkişaf üçün tamamilə fərqli imkanlar yaratdıqda daha aydın görünür. Bu baxımdan, bu gün Naxçıvan Muxtar Respublikası ətrafında baş verən proseslər xüsusi diqqət çəkir.**

**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin avqustun 11-də Naxçıvana səfəri muxtar respublikanın rolunun artıq yalnız ölkədaxili regional inkişaf çərçivəsi ilə məhdudlaşmadığını göstərir. Naxçıvan Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirəcək yeni nəqliyyat və iqtisadi arxitekturanın əsas halqalarından birinə çevrilir. Perspektivdə bu sistemə enerji infrastrukturu da əlavə olunacaq. "Bu yeni mərhələnin möhkəm tarixi təməli var. Naxçıvan hər zaman Azərbaycan dövlətçiliyində xüsusi yer tutub. Ulu Öndər Heydər Əliyevin adı muxtar respublikanın siyasi tarixinin bütöv bir dövrü ilə bağlıdır. Sonrakı illərdə Naxçıvanın təhlükəsizliyinin, sosial dayanıqlılığının və davamlı inkişafının təmin edilməsi Prezident İlham Əliyevin dövlət siyasətinin mühüm istiqamətlərindən biri olub. Bu inkişafın hansı şəraitdə təmin edildiyini də nəzərə almaq lazımdır. Onilliklər ərzində Azərbaycanın əsas hissəsi ilə birbaşa quru bağlantısının olmaması Naxçıvan üçün obyektiv iqtisadi və logistik məhdudiyyətlər yaratmışdır. Buna baxmayaraq, muxtar respublikada müasir infrastruktur formalaşdırılmış, enerji və ərzaq təhlükəsizliyi təmin edilmiş, genişmiqyaslı sosial layihələr həyata keçirilmişdir. Bu gün isə artıq Naxçıvanın geoiqtisadi mövqeyinin özü dəyişir", - deyə o bildirib.

Deputat qeyd edib ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru bağlantısının bərpası məsələsi tamamilə yeni siyasi məzmun qazanıb. Bu, artıq yalnız nəqliyyat məsələsi deyildi, söhbət uzunmüddətli münaqişənin başa çatmasından sonra regionda yeni kommunikasiya sisteminin formalaşdırılmasından gedirdi. Prezident İlham Əliyev Naxçıvanda bu prosesin tarixinə ətraflı toxunaraq bildirdi ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək nəqliyyat bağlantısı ilə bağlı müddəa məhz Azərbaycanın qəti mövqeyi nəticəsində 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata daxil edilmişdi. Lakin sonrakı illərdə praktiki irəliləyiş baş vermədi. Dönüş nöqtəsi isə 2025-ci il avqustun 8-də keçirilmiş tarixi Vaşinqton Zirvə görüşü oldu. Bundan sonra layihə TRIPP, yəni "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" formatında yeni siyasi və beynəlxalq məzmun qazandı.

S.Fətəliyeva deyib ki, Azərbaycan Horadiz-Ağbənd avtomobil yolunun tikintisini demək olar ki, başa çatdırıb, Ermənistan sərhədinə doğru dəmir yolunun inşası isə sürətlə davam etdirilir: "Eyni zamanda Naxçıvan ərazisində də dəmir yolu infrastrukturu yenilənir. Yeni texniki iqtisadi əsaslandırmaya görə, Naxçıvan dəmir yolunun uzunluğu 194 kilometr olacaq. Strateji hədəf bu nəqliyyat xəttinin yükaşırma qabiliyyətini ən azı 15 milyon tona çatdırmaqdır. Lakin bu layihənin əhəmiyyəti Azərbaycanın iki hissəsi arasında nəqliyyat əlaqəsinin bərpasından qat-qat genişdir. Naxçıvanın coğrafi mövqeyi unikaldır. Muxtar respublika Türkiyə, İran və Ermənistanla həmsərhəddir. Yeni kommunikasiyaların açılması onun nəqliyyat sistemindəki mövqeyini kökündən dəyişir. Naxçıvan son məntəqədən tranzit məkanına çevrilir. Məhz burada baş verən transformasiyanın əsas mahiyyətlərindən biri üzə çıxır.

Uzun illər Azərbaycanı Qərb istiqaməti ilə birləşdirən əsas nəqliyyat xətləri Gürcüstan üzərindən keçib və bu marşrut bundan sonra da öz strateji əhəmiyyətini saxlayacaq. Naxçıvan üzərindən yeni xəttin yaranması isə Azərbaycanın nəqliyyat imkanlarını şaxələndirməklə, Türkiyə və oradan Avropaya əlavə çıxış formalaşdıracaq. Eyni zamanda



TRIPP daha böyük geoiqtisadi sistemə qoşulur. Söhbət Mərkəzi Asiyanı Xəzər dənizi, Azərbaycan və Türkiyə vasitəsilə Avropa ilə birləşdirən Orta dəhlizdən gedir. Digər mühüm perspektiv isə Naxçıvan və Culfa dəmir yolu qovşağı vasitəsilə İran istiqamətində yaranır. Bu xətt İran üzərindən Fars körfəzinə doğru çıxış imkanları açır. Beləliklə, yeni infrastruktur həm də "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin mühüm qollarından birinə çevrilmək potensialına malikdir. Başqa sözlə, söhbət artıq bir nəqliyyat dəhlizindən deyil, müxtəlif istiqamətlərin kəsişdiyi yeni logistik qovşaqdan gedir. Həmin qovşağın mərkəzində isə Naxçıvan dayanır".

Deputat vurğulayıb ki, TRIPP-ın gələcək əhəmiyyətini yalnız hərəkət edəcək qatarların, avtomobillərin və daşınacaq yüklərin həcmi ilə qiymətləndirmək düzgün olmaz. Nəqliyyat magistralı ətrafında iqtisadi fəaliyyət formalaşdığı zaman onun real inkişaf effekti yaranır. İldə 15 milyon ton yükün hərəkəti logistika terminallarına, anbar komplekslərinə, xidmət müəssisələrinə, emal sənayesinə, istehsala, mehmanxana və digər xidmət sahələrinə yeni tələbat yarada bilər. Bu isə investisiyalar, sahibkarlıq imkanları və yeni iş yerləri deməkdir. Məhz buna görə növbəti mərhələdə yeni marşrut boyunca istehsal və logistika klasterlərinin yaradılması perspektivi ön plana çıxır. Naxçıvan Sənaye Parkının yaradılması da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Muxtar respublika yalnız tranzit ərazi deyil, daşınan məhsullar və formalaşan ticarət axınları ətrafında əlavə dəyər yaradan iqtisadi mərkəzə çevrilmək imkanı əldə edir. Layihəyə beynəlxalq maraq da Naxçıvanın yeni rolunun artıq daha geniş coğrafiyada qiymətləndirildiyini göstərir. Avropa İttifaqının nümayəndələrinin Naxçıvana səfər edərək dəmir yolu infrastrukturu ilə yerində tanış olması bunun göstəricilərindən biridir.

S.Fətəliyeva bildirib ki, Prezident İlham Əliyev Naxçıvan dəmir yolunun yenidən qurulması üçün beynəlxalq konsorsiumun yaradılması imkanını da istisna etməyib. Bununla yanaşı, prinsipial şərt də müəyyənləşdirilib: nəzarət paketi Azərbaycan dövlətinə məxsus olmalıdır. Dövlət başçısı, aydın şəkildə bildirib ki, xarici investorların iştirak edib etməməsindən asılı olmayaraq, Azərbaycan bu layihəni öz imkanları hesabına həyata keçirməyə qadirdir. Bu yanaşma Azərbaycanın bugünkü iqtisadi siyasətinin mühüm xüsusiyyətini nümayiş etdirir. Beynəlxalq əməkdaşlıq layihələri genişləndirən və onların cəlbediciliyini artıran imkan kimi nəzərdən keçirilir, lakin onların həyata keçirilməsinin zəruri şərti deyil. "TRIPP-ə yalnız nəqliyyat layihəsi kimi deyil, daha geniş infrastruktur platforması kimi baxdıqda perspektivlər daha da böyüyür. Gələcəkdə bu xətt elektrik enerjisinin ötürülməsi, rəqəmsal kommunikasiyalar və ehtiyac yarandığı halda digər enerji infrastrukturu üçün də mühüm arteriyaya çevrilə bilər. Prezident İlham Əliyevin vurğuladığı kimi, layihə yalnız dəmir və avtomobil yolları ilə məhdudlaşmır. Buradan fiber optik kabel, elektrik xətləri, gələcəkdə zərurət yaranarsa, neft və qaz kəmərlərinin də keçməsi mümkündür.

Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa istiqamətində yeni enerji xəttinin yaradılması xüsusilə mühüm perspektivlər açır. Digər tərəfdən, Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"nin Xəzər dənizi və Azərbaycan üzərindən Qərb bazarlarına çatdırılması istiqamətində də konkret planlar mövcuddur. Bu mənada Naxçıvan gələcəkdə yalnız nəqliyyat deyil, həm də enerji axınlarının kəsişdiyi strateji mərkəzlərdən birinə çevrilə bilər. Baş verən proseslərin nəqliyyat və iqtisadi hesablamalardan kənara çıxan mühüm siyasi tərəfi də var. Kommunikasiyalar qarşılıqlı maraqlar və asılılıq yaradır. Region ölkələrini dəmir yolları, enerji xətləri, rəqəmsal infrastruktur və ticarət əlaqələri birləşdirdikcə sabitliyin və sülhün konkret iqtisadi dəyəri formalaşır. Məhz buna görə TRIPP Azərbaycan və Ermənistan arasında sülh gündəliyindən ayrılıqda nəzərdən keçirilə bilməz", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, onilliklərlə davam edən qarşıdurmadan sonra region qapalı sərhədlər və blokadalar məntiqindən açıq kommunikasiyalar və iqtisadi əməkdaşlıq mərhələsinə keçmək imkanı əldə edib. Ermənistan üçün də yeni nəqliyyat arxitekturasında iştirak daha geniş bazarlara çıxış və tranzit imkanları yarada bilər. Türkiyə Azərbaycan və Mərkəzi Asiya ilə əlavə bağlantı əldə edir. İran isə Şimal-Cənub dəhlizindəki mühüm mövqeyini saxlamaqla yanaşı, Naxçıvan istiqamətində yaranacaq yeni imkanlardan faydalana bilər. Siyasi iradə və qarşılıqlı maraqlar düzgün uzlaşdırıldığı təqdirdə bu model bütövlükdə region üçün yeni iqtisadi imkanlar yarada bilər.

S.Fətəliyeva vurğulayıb ki, bütün bu prosesləri 2020-ci ildə baş vermiş tarixi hadisələrdən ayrı təsəvvür etmək mümkün deyil: "Cənubi Qafqazda formalaşan yeni nəqliyyat arxitekturasının siyasi başlanğıc nöqtəsi Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı zəfər, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi nəticəsində yaranmış yeni reallıqdır. Hərbi qələbə regiondakı qüvvələr nisbətini və siyasi vəziyyəti dəyişdi. Azərbaycanın sonrakı strategiyası isə göstərdi ki, məqsəd münaqişəni başqa formada davam etdirmək deyil, əldə olunmuş nəticəni uzunmüddətli sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa çevirməkdir. Döyüş meydanındakı qələbədən sonra daha mürəkkəb mərhələ başladı. Bu mərhələnin əsas məqsədi hərbi siyasi nəticələri davamlı sülh, kommunikasiya və iqtisadi qarşılıqlı maraqlar sistemi ilə möhkəmləndirməkdir. Məhz bu kontekstdə "Prezident İlham Əliyev həm müharibəni, həm də sülhü qazandı" tezisi öz real məzmununu tapır. Müharibədə qazanılan Zəfər Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Sülhün qələbəsi isə yaranmış yeni reallığın geridönməzliyini təmin etməlidir".

Deputat bildirib ki, illərlə Azərbaycanın əsas hissəsi ilə birbaşa quru əlaqəsinin olmamasından irəli gələn məhdudiyyətlərlə üzləşən muxtar respublika indi öz coğrafiyasını strateji üstünlüyə çevirmək üçün tarixi imkan əldə edir. Burada Mərkəzi Asiyadan, Cənubi Qafqazdan, Türkiyədən, İrandan və Avropadan gələn yolların kəsişməsi üçün yeni perspektiv yaranır. Bu səbəbdən Naxçıvan ətrafında gedən proseslər yalnız bir bölgənin inkişaf tarixçəsi deyil, daha geniş transformasiyanın tərkib hissəsidir. Azərbaycan tarixi Zəfərinin nəticələrini ardıcıl şəkildə hərbi siyasi müstəvidən geoiqtisadi müstəviyə keçirir. Bu strategiyanın tam reallaşması ilə Cənubi Qafqazın yeni iqtisadi xəritəsində ən böyük dəyişikliklərdən biri məhz Naxçıvanda görünəcək. Muxtar respublika nəqliyyat marşrutlarının son nöqtəsindən regionun iqtisadi gələcəyini müəyyənləşdirən əsas qovşaqlardan birinə çevriləcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Naxçıvanda da şəhid ailələrinə və qazilərə yüksək qayğı var

**Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə, eləcə də sağlamlığını itirmiş qazilərimizə sahib çıxmaqdır. Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Bu, inzibati və ya sosial öhdəliklə yanaşı, mənəvi borcun və dövlət ehtiramının aydın göstəricisidir.**

Azərbaycanın hər bir bölgəsində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da sosial siyasət bu prinsiplər əsasında qurulub. Naxçıvanda həyata keçirilən tədbirlər şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Muxtar respublikada bu sahədə sistemli, ardıcıl və məqsədyönlü layihələr icra olunur. Dövlətimizin diqqəti bu insanların həm maddi, həm də mənəvi ehtiyaclarının tam şəkildə ödənilməsinə yönəlib.

Ölkəmizdə sosial təminat proqramlarının miqyası ildən-ilə genişlənir. Görülən işlər hər bir şəhid ailəsinin və müharibə əlilinin dövlət qayğısını yaxından hiss etməsinə imkan yaradır. Bu siyasət Naxçıvanın da ümumi sosial-iqtisadi inkişaf kursunun ayrılmaz tərkib hissəsidir. Belə ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial rifahının yaxşılaşdırılması istiqamətində Naxçıvanda konkret nəticələrə söykənən tədbirlər görülür. 2023-cü ildən bu günədək olan dövrü əhatə edən göstəricilər bu sahədəki işlərin geniş vüsət aldığını göstərir. Qeyd olunan müddət ərzində muxtar respublikada şəhid ailəsi üzvü və ya Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər 26 mənzillə məişət şəraitini yaxşılaşdırmaq üçün təmin edilib. Bu insanlara mobilliklərinin və rahatlıqlarının təmin olunması məqsədilə 24 avtomobil verilib, 102 nəfər isə sanatoriya-kurort yollayışı ilə təmin edilərək sağlamlıqlarının bərpasına şərait yaradılıb. Mənzil və avtomobil təminatı həmin kateqoriyadan olan vətəndaşların gündəlik həyat standartlarını yüksəldir. Sanatoriya-kurort yollayışları isə onların fiziki və psixoloji bərpa prosesinə xüsusi dəstək verir. Dövlət bu xidmətləri tam pulsuz və yüksək keyfiyyətlə təşkil edir. Hər bir mənzilin paylanması və avtomobilin təqdim olunması şəffaflıq prinsiplərinə uyğun həyata keçirilir.

Dövlət büdcəsi ilə yanaşı, xüsusi təsis edilmiş institutlar da bu sosial siyasətin icrasında mühüm rol oynayır. Bu baxımdan, "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının təminatına dəstək Fondu"nun ("Dəstək" Fondu) fəaliyyəti xüsusi qeyd olunmalıdır.

"Dəstək" Fondu yarandığı gündən etibarən həssas qrupa aid vətəndaşların məişət və sosial problemlərinin çevik həllinə yardımçı olur. Fondun vəsaiti hesabına həmin kateqoriyadan olan şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə ümumilikdə 1 844 382 manat məbləğində maddi yardım göstərilib. Bu vəsait müxtəlif istiqamətlər üzrə bölüşdürülüb. İlk növbədə həmin vəsait hesabına yaşayış evlərinin əsaslı və cari təmiri işləri icra olunub. Eyni zamanda vətəndaşların təcili tibbi müayinə və müalicə xərcləri qarşılanıb. Birləşdirilən maliyyə dəstəyi çərçivəsində məişət şəraitinin yaxşılaşdırılması üçün zəruri avadanlıqlar alınıb. Həmin şəxslərin təhsil və digər sosial ehtiyaclarının ödənilməsinə də müvafiq dəstək göstərilib. Fondun fəaliyyəti vətəndaşların fərdi ehtiyaclarına operativ reaksiya verməyə imkan yaradır. Bu sistem dövlətin sosial yardım şəbəkəsini daha da gücləndirir və əhatəliliyini artırır.

Naxçıvanda şəhid ailələrinin və müharibə əlillərinin mənzil şəraitinin yaxşılaşdırılması bitmiş proses olmayıb, davamlı xarakter daşıyır. Qarşıdakı dövr üçün nəzərdə tutulan planlar mənzil təminatının daha da genişlənəcəyini göstərir. Müəyyən edilmiş fəaliyyət planına əsasən, 2026-cı ilin sonunadək ümumilikdə 68 mənzilin şəhid ailələrinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə verilməsi nəzərdə tutulur. Bu çərçivədə Naxçıvan şəhərində 29, Şərur şəhərində 23, Ordubad şəhərində 6 mənzil ayrılacaq. Həmçinin Babək, Culfa və Şahbuz şəhərlərinin hər birində 3 mənzil, Kəngərli rayonunda isə 1 mənzil vətəndaşların istifadəsinə veriləcək.

Mənzillərin coğrafi bölgüsü muxtar respublikanın bütün inzibati ərazi vahidlərini əhatə edir. Bu addım sosial ədalət prinsipinin tam gözlənildiyini və diqqətin sadəcə mərkəzə yox, həm də bütün rayonlara yönəldildiyini sübut edir. Yeni tikilən və ya ayrılan mənzillər müasir tikinti standartlarına cavab verir və bütün lazımi kommunal şəraitlə təmin olunur. Eyni zamanda əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması çərçivəsində 2025-ci il 28 fevral tarixində imzalanmış sərəncamla çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə 546,7 min manat vəsait ayrılıb.

Beləliklə, Naxçıvanda həyata keçirilən bu genişmiqyaslı sosial tədbirlər dövlətin öz vətəndaşına olan dayaq və ehtiramının real təzahürüdür. Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi hər zaman uca tutulur, onların ailələri və qazilərimiz isə dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunurlar.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

**"Bizim məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir".**

***Heydər ƏLİYEV,***
***Ümummilli Lider***



# Milli dəyərlərimiz əvəzsiz mənəvi sərvətimizdir

**XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan qısa müddət ərzində totalitarizmin mənəvi-siyasi buxovlarından azad olaraq demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yoluna qədəm qoydu.**

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların ən mühüm qollarından birini insan hüquq və azadlıqlarının, xüsusilə də söz və mətbuat azadlığının təmin edilməsi təşkil edirdi. 1998-ci ildə mətbuat üzərində senzuranın rəsmən ləğv edilməsi Azərbaycanın demokratik inkişafında tarixi bir dönüş nöqtəsi oldu. Dövlət cəmiyyətin azad fikirliliyini, plüralizmi və açıq diskussiya mühitini daxili siyasətin prioriteti elan etdi.

Lakin hər bir gənc demokratik ölkədə olduğu kimi, həmin illər Azərbaycanda da azad mətbuatın formalaşması prosesi müəyyən fəsadlar və mənfi tendensiyalarla müşayiət olunurdu. Hüquqi savadlılığın və peşə etikasının hələ tam formalaşmadığı keçid dövründə bəzi kütləvi informasiya vasitələri dövlətin bəxş etdiyi azadlıq prinsiplərini yanlış şərh etməyə başlamışdılar. Azad söz anlayışı tədricən şəxsi-qərəzlik, şantaj, böhtan və cəmiyyətin fundamental dəyərlərinə hücum alətinə çevrilmə təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir ideoloji və mənəvi mürəkkəblik şəraitində - 2001-ci il avqustun 13-də Ümummilli Lider Heydər Əliyev tərəfindən verilən bəyanat təkcə konkret bir hadisəyə reaksiya deyildi, bütövlükdə milli-mənəvi təhlükəsizliyin qorunması prinsiplərini diktə edən fundamental bir dövlət siyasəti idi.

## Mənəvi yüksəlişə səsləyən dəyərlər

Müdriklərimizin sözüdür: təmiz mənəviyyat cəmiyyətdə sağlam mühitin göstəricisidir. Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan əxlaqi dəyərlər, ictimai şüurda özünə yer tapmış dini ayin və mərasimlər hər bir millətin kamillik səviyyəsinin təcəssümü olmaqdan savayı, həm də bəşər sivilizasiyasına töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər eyni zamanda xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsidir. Mənəvi dəyərlər həmişə sabit ənənəyə, qayğıkeş münasibətə, ən başlıcası isə ictimai rəyin ehtiramına möhtacdır. O, gözdən düşəndə qeybə çəkilir. Mənəviyyatın qıtlığı isə təhlükəli amildir. Cəmiyyəti geriyə, nizamsız meyillərə doğru istiqamətləndirir.

Bu gün əsrlərin sınağından çıxmış xalqımız ülvi dəyərlərini, adət-ənənələrini hifz etməklə yanaşı, eyni zamanda ümumbəşəri, mütərəqqi dəyərlərə tolerant münasibət bəsləyir, daim müasirliyə və yeniliyə can atır. Prezident İlham Əliyevin milli mədəniyyətin, mənəvi və dini dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti bu baxımdan çağdaş dövrün reallıqları ilə şərtlənir. Dövlətimizin başçısı hesab edir ki, müasir qloballaşma zamanında elmi-texniki tərəqqinin sürətli inkişafı mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə müəyyən təhlükəli meyilləri də özünü qabarıq göstərir. Belə bir mərhələdə xalqların mədəni dəyərlərinin assimilyasiyaya məruz qalması halları baş verir. Çünki dünya inkişafının aparıcı istiqamətlərindən sayılan qloballaşma prosesi dövlətlər və ölkələr arasında sərhədləri nisbi anlayışa çevirir, milli məkanı müxtəlif, yad təsirlərə məruz qoyur. Ali mənəvi dəyərlərin saxta ideallarla əvəzlənməsi kimi arzuolunmaz meyillər ortaya çıxır.

Ümummilli Lider Heydər Əliyevin hələ 2001-ci il avqustun 13-də verdiyi bəyanat bu proseslərdən doğan narahatlıqlarla bağlı idi. Ulu Öndər aparılan iqtisadi islahatlarla yanaşı, mənəvi dəyərlərin nisbətini tapmağı da vacib hesab edirdi. Bəyanatda göstərilirdi ki, mənəviyyata əsaslanmayan maddi quruculuq xalqa heç vaxt uğur gətirə bilməz. Burada araşdırılan əxlaq məsələsi, gənc nəslin yad təsirlərdən müdafiəsi, dini məsələlərə münasibət, kütləvi informasiya vasitələrində milli dəyərlərə hörmət hissinin qorunması, sosial ədalət və digər geniştutumlu mövzular müasir dünyamızda hər gün üz-üzə gəldiyimiz böyük problemlərdir. Heydər Əliyevin dövlətçilik irsinin ən mühüm tərəfi də xalqın mənəvi gücünü səfərbər etməkdir.

Ulu Öndərin bəyanatı dərin analitik mühakimələrə və dövlətçilik məntiqinə əsaslanırdı. Bəyanatda bir-biri ilə sıx bağlı olan bir neçə konseptual istiqamət öz əksini tapmışdı. Məsələn, söz azadlığının sərhədləri ilə bağlı Ümummilli Lider vurğulayırdı ki, dövlət mətbuat azadlığını toxunulmaz hesab edir və bu, geriyədönməz bir prosesdir. Lakin heç kimə azadlıq adı altında başqasının hüquqlarını tapdalamaq, insanların şərəf və ləyaqətini alçaltmaq hüququ verməyib. Mənəviyyatın qorunması isə təbii bir qanundur. Bəyanatda qeyd olunurdu ki, bir cəmiyyətin formalaşmasında onun mənəvi sütunları iqtisadi mexanizmlər qədər önəmlidir. Milli kökləri, dini inancları və əsrlərlə sınaqdan çıxmış adət-ənənələri mətbuat vasitəsilə aşındırmaq cəhdləri dövlətin təməllərinə sarsıdıcı zərbə vurmaq deməkdir.

## Əsas məqsəd sağlam nəsil yetişdirməkdir

Azərbaycan istər insan potensialı, istərsə də təbii sərvətlər baxımından dünyanın ən zəngin ölkələrindəndir. Amma ötən əsrin 80-ci illərinin ortalarından sonra müəyyən müddətdə cəmiyyətdə gedən mənəvi tənəzzül və aşınmalar ölkəmizin tərəqqisinə mane olan əsas səbəblərdən biri oldu. Çətinliklərin qlobal səbəbləri elə bu sosial tərbiyə sisteminin və keçid dövrünün qüsurları ilə əlaqədar idi. Bəyanatda açıq göstərilirdi ki, mənəviyyat hər bir dövrdə daxili nizamın əsas özəyidir. Düzdür, tarixdə belə keçid dövrləri həmişə cəmiyyətin mənəvi dayaqlarında, sosial bazalarında, fərdlərin davranışında, dəyərlərə münasibətdə aşınmalarla müşayiət olunur. Lakin onların qarşısını almaq üçün həmişə ayıq olmalı, nəzarəti gücləndirməli və vaxtında tədbirlər görməliyik. Ona görə də xalqımızın sabahı deyəndə, ən birinci, gəncliyin milli-mənəvi, əxlaqi dəyərlərə yiyələnməsi barədə düşünməliyik.

Bəyanatda göstərilirdi ki, ağrılı cəhət uşaqlar arasında təbəqələşmənin aydın şəkildə təzahürüdür. Maddi bolluq içərisində, imkanlı ailələrdə böyüyən gənclərin tərbiyəsində bəzən qüsurlara rast gəlirik. Əyləncə gənclər üçün təbii haldır. Lakin ifrat əyləncə aludəliyi mənəvi dəyərlərə bağlılığın əksidir və bu, insanların həyat tərzinin əsasına çevrilməməlidir, normal, sağlam cəmiyyət bunu qəbul etmir. Ona görə də böyüklərin biganəliyi və laqeydliyi ucbatından cəmiyyət daha bir potensial problemlə üz-üzə qalır. Bir çox sosioloq və psixoloqların fikrincə, cəmiyyət tərəqqi etdikcə, elmi-texniki biliklərə ehtiyacın səviyyəsi yüksəldikcə, insan tərbiyəsinin, ilk növbədə, ailə tərbiyəsinin əhəmiyyəti artır. Çünki ailə münasibətlərində bu gün göz yumduğumuz hər bir nöqsan sabah ağır nəticələr verə bilər.

2001-ci il tarixli bəyanatda gənc nəsli yaşatmaq, uşaqlar arasında fərqli həyat səviyyəsini yaxşılaşdırmaq üçün xeyli müddəalar göstərilmişdir. Normal cəmiyyətlərdə insan tərbiyəsinin əsas məqsədi sağlam şəxsiyyətlər yetişdirməkdir. Çox təəssüfləndirici hal olardı ki, bizim gənclər mənəvi dəyərlərə deyil, maddi, əyləncə xarakterli vərdişlərə aludəçilik zəminində böyüyərdilər. Bu, sözün həqiqi mənasında, dağıdıcı bir nəsil olardı. Bizə isə qurucu və ideal bir nəsil lazımdır. Ümummilli Lider mənəviyyatla bağlı bütün nitqlərində bir amilə - cəmiyyət üçün faydalı insan böyütmək amilinə xüsusi diqqət yetirməyi həmişə vurğulayırdı. Bizim mənəvi sahədə böyük ənənələrimiz, sağlam milli mentalitetimiz var. İnsan tərbiyəsi sistemini təkmilləşdirərkən, ilk növbədə, bu bazaya əsaslanmalı, bəşəriyyəti tərəqqiyə aparan yolla getməliyik.

Vətən müharibəsində qazandığımız Zəfərlə Azərbaycan gəncliyinin də həyatında yeni bir mərhələ başladı. Apardığımız savaşda və əldə etdiyimiz şanlı qələbədə ölkəmizin haqq işinə bacardığı töhfələri vermiş hər kəsin fədakar əməyi var. Amma bu, daha çox Ulu Öndər Heydər Əliyevin milli inkişaf kursunu gənclər siyasəti sahəsində də davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin respublikaya rəhbərliyi dövründə yetişmiş və formalaşmış gəncliyin qazandığı Zəfərdir.

Vətən, dövlət bu gənclik üçün sadəcə söz deyil, sarsılmaz inamdır, arzulara çatmaq üçün mənəvi və maddi güc mənbəyidir, böyük bir dayaqdır. Daim vətəndaşlarının yanında olan, onların rifahı, xoşbəxtliyi üçün çalışan birlikdir, xüsusi bir təsisatdır. Hər şeydən əvvəl qürur mənbəyidir, Vətən evinin abadlığıdır, inkişafdır, dünyaya qovuşmaqdır, qlobal proseslərin güclü bir hissəsi olmaqdır. Azərbaycan gəncliyi bu dövlətdə, bu Vətəndə öz gələcəyini aydın görə bilir. Ona görə də respublikanın inkişafına töhfə verməyə, Vətən naminə misilsiz fədakarlıqlar göstərməyə hər zaman hazırdır. İşğal altındakı torpaqlarımız bu vətənpərvər gəncliyin gücü ilə azad edildi. Bununla da Azərbaycan gəncliyinin həyatında yeni bir dönəm başlandı.

Tarixi Qələbəmizdən sonra Şuşaya ilk səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev gənclərimizin Vətən müharibəsindəki qəhrəmanlığını nəzərdə tutaraq demişdir: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".

## Tolerantlığın ünvanı - Azərbaycan

Bu bəyanat həm də müstəqil Azərbaycanın din-dövlət münasibətlərinin strateji konturlarını cızdı. Azərbaycanın tolerantlıq və multikulturalizm modelinin dünyaya nümunə dərəcəsində təqdimatı oldu. Heydər Əliyev nümayiş etdirdi ki, dünyəvilik dinə qarşı biganəlik və ya dindarların təhqir olunmasına göz yummaq demək deyil. Əksinə, dünyəvi dövlət bütün inancların, o cümlədən əksəriyyəti təşkil edən islam dininin və onun rəhbərliyinin cəmiyyətdəki ali statusunun hüquqi müdafiəçisidir. Bu addım ölkədə radikalizmin qarşısının alınmasında, dindarların dövlətə olan inamının möhkəmlənməsində və daxili ictimai sabitliyin qorunmasında həlledici rol oynadı.

Əsrlərin sərt sınaqlarından uğurla çıxan xalqımız tarixinin ən keşməkeşli, çətin anlarında belə insanlığın yüksəlişinə, mənəviyyatın təntənəsinə xidmət edən dini dəyərlərdən dönməyib, onları daim uca tutub. 70 il tərkibində yaşadığımız sovet imperiyası öz ideologiyasına uyğun ateizm təbliğatı apararaq insanlarımızı tarixi keçmişindən, dini və milli-mənəvi dəyərlərindən uzaqlaşdırmaq istəsə də, buna əsla nail olmayıb.

İslam dininin saflığını, humanist və insanpərvər mahiyyətini nümayiş etdirən əlamətdar günlər azərbaycanlıların müqəddəs bayramı kimi qeyd olunur. Bu və digər dini dəyərlərə qəlbən inanan Azərbaycan vətəndaşı həm də kamilliyə, mənəvi paklığa qovuşmağa, xeyirxah işlər görərək savab qazanmağa can atıb. İslam dininin mahiyyətini dərk edərək onun müqəddəs çağırışlarına, mərasim və ayinlərinə əməl etməyə çalışıb.

Azərbaycan Prezidenti İlham Əliyev bu fikirdədir ki, müasir dünyada qloballaşma prosesinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın dini dəyərlərinin qorunmasını çağdaş zamanın aktual məsələlərindən birinə çevirib. Məhz bunun nəticəsi olaraq son 23 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, xüsusən də yeni ziyarətgahların əsaslı təmiri və yenidən qurulmasına xüsusi diqqət ayrılıb, sərəncamlar imzalanıb.

Dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların ehtiyaclarına həssaslıqla yanaşması, mərasimlərdə iştirak etmələri xalq arasında böyük razılıq və minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün, tolerantlıq və həmrəyliyin fövqündə mühüm stimul rolu oynayır. Bu diqqət və qayğının nəticəsidir ki, hazırda Azərbaycanda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, yüzlərlə islam və qeyri-islam dini icmaları öz etiqadlarını azad və sərbəst şəkildə icra edirlər.

13 avqust 2001-ci il tarixli bəyanat bu gün də öz ideoloji çəkisini və aktuallığını tamamilə qoruyur. Müasir dövrdə rəqəmsallaşma, internet resurslarının və sosial şəbəkələrin sürətli inkişafı informasiya məkanını hüdudsuzlaşdırıb. Belə bir şəraitdə kibermәkanın bəzən şantaj, saxta xəbər, mənəvi aşınma və nifrət nitqi poliqonuna çevrildiyini görürük. Sənəd müasir cəmiyyətə təlqin edir ki, texnoloji tərəqqi və ifadə azadlığı mənəvi dəyərlərin fəda edilməsi hesabına baş verməməlidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün də davam edən dövlət siyasəti sübut edir ki, Azərbaycan öz milli-mənəvi köklərinə bağlı qalaraq mütərəqqi dünyaya inteqrasiya olunur. Və bu siyasətin qayəsində xalqın milli-mənəvi, mədəni və elmi intellektual potensialının gücləndirilməsi məqsədi öndə dayanır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

**2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir**

# "Villa Petrolea" - Nobel qardaşlarının yadigarı

## Əsaslı təmir olunan bu ev Bakının tarixi ünvanlarından biridir

**Bu binanın divarlarında tarixin əks-sədası yaşayır. Paytaxtımızın istər möhtəşəm qədim binaları, istərsə də yeni göydələnləri fonunda o, bəlkə də kiçik görünür. Amma həcminə görə mənası böyük, yaşatdığı yaddaş silinməzdir.**

Bu bina "Villa Petrolea"dır, neftimizin, neft sənayemizin, ümumən iqtisadiyyatımızın inkişafının mühüm bir mərhələsindən "söhbət açır". Bu, Nobel qardaşlarının evidir.

Əvvəla Nobel qardaşları kimdir? Bu sualın cavabı üçün Azərbaycanın neft sənayesinin tarixini vərəqləyək. Nobel qardaşları - Lüdviq, Robert və Alfred XIX əsrin sonlarında Bakıda neft sənayesinin inkişafında mühüm rol oynamış məşhur İsveç mühəndis, ixtiraçı və sahibkar ailəsinin üzvləridir. Onlar 1875-ci ildə Azərbaycanda "Nobel Qardaşları Şirkəti"ni ("Branobel") təsis edərək qabaqcıl neftçıxarma və neftin nəqli üsullarını tətbiq etmişlər.



Nobel qardaşları vaxtilə Bakıda böyük neft mədənləri işlədib, zavodlar və kerosin anbarları qurublar. Onlar eləcə də bir sıra ixtiralar edib və ilklərə imza atıblar. Məsələn, dünyada ilk dəfə neftdaşıyan tankerin ("Zoroaster" gəmisi) inşa edilməsi və Azərbaycanda ilk neft kəmərinin çəkilməsi məhz Nobel qardaşlarının adı ilə bağlıdır.

Dünyada ən prestijli beynəlxalq mükafatlardan biri hesab edilən Nobel mükafatı da isveçli ixtiraçı, mühəndis və sənayeçi Alfred Nobel tərəfindən təsis edilib. Bu mükafatın əsası onun vəsiyyəti əsasında qoyulub.

Alfred Nobel dinamitin ixtiraçısı kimi tanınırdı, lakin bu ixtira silahlanma yarışına səbəb olduğuna görə o, öz irsini fərqli bir istiqamətə yönəltmək qərarına gəldi. Onun arzusu elmin, mədəniyyətin və sülhün inkişafına kömək edəcək bir fond yaratmaq idi. Bu fond hər il ən dəyərli töhfə verən fərdləri mükafatlandırır.

Mövzuya qayıdaraq qeyd edək ki, Nobel qardaşları Bakıda sosial layihələr də gerçəkləşdirmişlər. Onlar işçiləri üçün evlər, məktəblər və xəstəxanalar - "Villa Petrolea" yaşayış yeri inşa etdirmişdilər. Belə ki, XIX əsrin sonlarında "Branobel" şirkəti tərəfindən öz işçiləri üçün Bakı ətrafında Qara şəhərin sərhədində yaşayış qəsəbəsi salınmışdır. Nobel qardaşlarının burada yerləşən şəxsi iqamətgahı da belə adlanır - "Villa Petrolia". Hazırda həmin yerdə Nobel Qardaşları Muzeyi və bir neçə təşkilatın ofisi fəaliyyət göstərir.

"Villa Petrolia" Xətai rayonunda, 8 Noyabr prospektində (keçmiş Nobel prospekti), Ağ Şəhər ərazisində, Nizami parkının (keçmiş Luna park) yaxınlığında yerləşir.

Nobel qardaşlarının iqamətgahı 1882-1884-cü illərdə tikilmişdir. Binanın inşası 1882-ci ildə başlanmış, 1884-cü ildə başa çatmışdır. Bu tarixi iqamətgah isveçli memar İohan Fredrik (Fyodor) Lidvalın layihəsi əsasında Bizans üslubunda inşa edilmişdir.

Dövrü üçün çox müasir olan tikilidə Bakıda ilk dəfə telefon xətti və xüsusi ventilyasiya - havasoyutma sistemi məhz bu binada tətbiq olunmuşdu. Binanın iç tərtibatı da xüsusi düşünülmüşdü. Otaqlar bahalı yerli xalçalarla bəzədilmiş, Sankt-Peterburqdan gətirilən əşyalar və tablolarla təchiz edilmişdi.

"Villa Petrolea" həm Nobel ailəsinin yaşayış evi, həm də "Branobel" şirkətinin rəhbərliyi üçün iqamətgah idi.

2000-ci illərin əvvəlinə qədər "Villa Petrolea" ərazisində olan binalar baxımsız vəziyyətdə idilər. Nobellərin iqamətgahı və yaşayış evləri dağılmış vəziyyətdə idi və onların yenidən qurulmasına ehtiyac yaranmışdı. Digər binalar isə çoxdan sökülmüş, teatr və klub yanğın nəticəsində məhv olmuşdu.

2004-cü ildə Nobel mirasının bərpası üçün Bakıda "Bakı Nobel İrsi Fondu" adlı ictimai təşkilat yaradılmışdır. 2007-ci ildə təşkilata Nobellərin iqamətgahını rekonstruksiya və restovrasiya etməyə icazə verilmişdir. 2008-ci il aprelin 25-də isə yenidən bərpa olunmuş iqamətgahın açılışı olmuşdur.

Bu həm də Nobel ailəsinə həsr edilmiş İsveçdən kənar ilk muzeydir. Muzey tarixidir və neft mövzusuna həsr edilib. Muzeydə Nobel ailəsinin istifadə etdiyi məişət və interyer əşyaları yığılıb. İqamətgahın interyeri əvvəlki sahiblərinin dövrünə nisbətən dəyişikliyə məruz qalıb, lakin bəzi hissələr (məsələn, kaminlər) dəqiqliyi ilə yenidən düzəldilib. Ümumilikdə evin interyeri sadə Avropa üslubundadır, ancaq bir otaq xüsusilə şərq üslubunda dizayn edilib. Eksponatların əksəriyyəti İsveç və Sankt-Peterburqdakı Nobel arxivləri və muzeylərinin materialları əsasında bərpa olunub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Qədim Şabran" abidəsində nadir tikili və saxsı borularla çəkilən su xətti aşkarlanıb

**"Çıraqqala–Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşən dünya əhəmiyyətli "Qədim Şabran" abidəsində tədqiqatların növbəti mərhələsinə başlanılıb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, arxeoloji qazıntılar nəticəsində qədim Şabran şəhərini su ilə təmin edən saxsı borular, ovdan və ya anbar olması ehtimal edilən nadir tikili və bir sıra başqa maddi mədəniyyət nümunələri aşkarlanıb.

Tədqiqatlar Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin və AMEA Arxeologiya və Antropologiya İnstitutunun birgə dəstəyi ilə həyata keçirilir.

Şabran arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru Səfər Aşurov AZƏRTAC-a bildirib ki, "Qədim Şabran" abidəsində təxminən on illik fasilədən sonra arxeoloji qazıntılar yenidən bərpa olunub. Tədqiqatların bundan sonra sistemli şəkildə il boyu davam etdirilməsi nəzərdə tutulub.

"Xəzərin qərbsahili boyunca Azərbaycanın bir sıra Orta əsr şəhərləri mövcud olub. Onlar içərisində Orta əsr mənbələrində Dərbənddən sonra ən önəmli şəhər kimi Şabran şəhərinin adı çəkilir. Şabran şəhərinin qalıqları böyük ərazini – təxminən Şahnəzərli, Rəhinli, Aygünlü və başqa kəndləri əhatə edir. Şəhər yerinin aşkarlanması, ilk tədqiqatların aparılması ötən əsrin yetmişinci illərində başayıb. Təqribən on il bundan əvvəl burada qazıntılar dayandırılmışdı. Biz bu il yenidən qazıntı işlərini bərpa etdik. Əsas məqsəd bu abidənin aşağı təbəqələrinin dövrünü tam dəqiq müəyyən etməkdir. Çünki yazılı mənbələrdə Erkən Orta əsrlərdə (V-VI əsrlər) Şabran şəhərinin mövcudluğu haqqında məlumatlar var. Ancaq bu illər ərzində aparılan qazıntılar zamanı biz hələlik aşağı təbəqəyə çata bilməmişik. Çünki burada çox qalın, 5-6 metrlik mədəni təbəqə var. İkinci məqsədimiz isə



Şabran şəhərinin son dövrlərində burada baş vermiş sosial prosesləri izləməkdir", - deyə Səfər Aşurov söyləyib.

Mütəxəssis bildirib ki, hazırda tədqiqat aparılan ərazi təqribən XV əsrin mədəni təbəqəsinə aiddir. Qazıntılar zamanı bir sıra maraqlı tapıntılar aşkarlanıb.

"Qədim Şabran şəhərini su ilə təchiz edən saxsı boruların müəyyən hissəsi artıq üzə çıxarılıb. Bu xətt saxsı borular vasitəsilə suyun dağlardan Şabran şəhərinə gətirilməsi üçün vasitədir. Digər tərəfdən, çox maraqlı günbəzvari bir tikilinin qalıqları üzə çıxıb. Bu, çox güman ki, anbar, yaxud da hər hansı bir ovdan ola bilər. Hələ ki üst təbəqədəyik. Alt qatlar təmizləndikcə tikili barədə daha aydın fikir yürüdə biləcəyik. Tapıntılar arasında çox sayda şirli və şirsiz qablar var. Şirli qabların böyük əksəriyyəti Son Orta əsrlərə (XVII-XVIII əsrlərə) aid edilir", - deyə Səfər Aşurov söyləyib.

Mühüm tapıntılardan biri də lazurit daşından olan medalyondur. Mütəxəssis güman edir ki, bu medalyon Şabran şəhərinə ticari yolla gətirilib və Qədim Şabranın iqtisadi əlaqələrinin hansı səviyyədə olması haqqında informasiya verəcək.

"Qədim Şabran" arxeoloji abidəsində tədqiqatlarla paralel "Çıraqqala–Şabran: Tarixin izində" Arxeoloji Yay Məktəbi – I layihəsinə də start verilib.



# Mədəniyyət



● Ustad sənətkar

# Muğamımızın Xanı

**Qarabağın baş tacı, Azərbaycanın incisi Şuşanın qoynunda neçə-neçə musiqiçi, xanəndə, bəstəkar yetişib. Musiqiyə sevgi və ehtiram sanki bu qədim şəhərin ruhuna hopub. Odur ki, Şuşada gözəl səsi ilə fərqlənmək, könülləri fəth etmək, sənətkar adını qazanmaq günü bu gün də asan deyil.**

O, 1901-ci il avqustun 20-də belə bir şəhərdə dünyaya göz açıb. Əsl adı İsfəndiyar, soyadı Cavanşirdi. Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşirin nəslindən idi. Atası Aslan ağa Cavanşir savadlı, musiqisevər insan olub. Onun evində qurulan musiqi məclislərinə tanınmış xanəndələr, şairlər, musiqiçilər toplaşar, muğamdan, şeirdən, sənətdən söz açardılar. İsfəndiyarın uşaqlığı da belə bir mühitdə keçib.

Onun qeyri-adi səsə malik olduğunu hələ kiçik yaşlarından biliblər. Xanəndə öz xatirələrində yazmışdır ki, səsim o qədər güclü idi, evdə oxuyanda rəflərdəki qablar sanki cingildəyirdi, ona görə evdən qaçıb, dağ başına çıxıb oxuyurdum ki, məni heç kəs eşitməsin.

İsfəndiyarın təkcə gözəl səsi olmayıb. Tarda da mahir ifa edib. Atası oğlunun musiqi sənətinə, xanəndəliyə meylini və istedadını görüb onu dövrünün məşhur xanəndəsi, muğam ustadı İslam Abdullayevin yanına aparıb. "Segah İslam" kimi tanınan sənətkardan İsfəndiyar Cavanşir muğamların sirlərini, xalq mahnılarının incəliklərini öyrənib. Ancaq Ağdamın Novruzlu kəndində keçirilən bir məclisdə yaşananlar İsfəndiyar Cavanşirin həyatında yeni səhifə açıb. Həmin gün məclisdə qrammofonda məşhur təbrizli xanəndə Əbülhəsən xan İqbal Azərin ifasında "Kürd-Şahnaz" muğamı səslənib. İfa məclisdəkiləri heyran edib. İslam Abdullayev İsfəndiyara üz tutaraq deyib: "İsfəndiyar, bəlkə sən də oxuyasan?" Gənc xanəndə əvvəlcə muğama bir daha qulaq asmaq istədiyini söyləyib. Sonra isə "Kürd-Şahnaz"ı özünəməxsus tərzdə ifa edib. Onun səsi məclisdəkiləri heyrətə gətirib. Məclisdəkilərdən biri heyranlıqla səslənib: "Əsl xan elə bu imiş!" İslam Abdullayev istedadlı yetirməsinə xeyir-dua verib: "Bu gündən sən oldun Xan". Beləcə, İsfəndiyar Cavanşir Xan Şuşinski kimi tanınıb, Azərbaycan muğam sənəti tarixinə bu adla təkrarsız səhifə yazıb.

O, xan nəslinin övladı idi. Amma başqa bir zamanda yaşayırdı. Xan, bəy, ağa adlarına qənim kəsilmiş sovet hakimiyyətinin qılıncının ən kəsərli vaxtları idi. İnsanları keçmişinə, bu adları daşımış, varlı-dövlətli olmuş ata-babalarına görə mühakimə edir, həbsxanaya salır, sürgünə göndərir, hətta güllələyirdilər. O, belə bir dövrün Xanı oldu. Ecazkar səsi, istedadı sayəsində qorxu-ürküsüz, kimsədən çəkinmədən Xan kimi yaşadı.



Muğam sənətimizin Xanının şöhrəti qısa zamanda Qarabağı aşdı. 1920-ci illərdə paytaxta gələn Xan burada ilk dəfə səhnəyə 1923-cü ildə Azərbaycan Dövlət Filarmoniyasında çıxıb. Tezliklə Bakının zəngin mədəni mühitində yer tutub, daha geniş auditoriyalarda çıxış etməyə başlayıb. Xanəndənin repertuarı olduqca zəngin idi. O, "Bayatı-Qacar", "Mahur-Hindi", "Qatar", "Qarabağ şikəstəsi", "Heyratı" kimi muğamları özünəməxsus tərzdə, böyük məharətlə oxuyurdu. Onun ifasında Azərbaycan muğamları və xalq mahnıları yeni çalarda təqdim olunurdu.

Xan Şuşinski yalnız ifaçı deyildi, həm də bəstəkar idi. Onun "Qəmərim", "Şuşanın dağları" və başqa mahnıları bu gün də dillər əzbəridir.

Xan Şuşinskinin sənətini yüksək qiymətləndirən böyük şəxsiyyətlərdən biri də Üzeyir bəy Hacıbəyli olub. Üzeyir bəy sənətkara böyük ehtiramla yanaşıb, onun milli musiqimizin, muğam sənətimizin inkişafındakı xidmətlərini yüksək qiymətləndirib. 1926-cı ildə Üzeyir bəy Hacıbəylinin "Qaragöz" mahnısının ilk ifaçısı da Xan Şuşinski olmuşdu. 1934-cü ildə Tiflisdə keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasında Xan Şuşinski böyük uğur qazanmış və birincilik mükafatına layiq görülmüşdür.

1930-cu illərin sonlarında bir çox ziyalı və sənət adamı kimi, Xan Şuşinski də böyük narahatlıq içərisində yaşamışdı. Milli düşüncəyə bağlılığı həmin dövrün sərt ideoloji mühitində birmənalı qarşılanmırdı. Bir müddət Xan Şuşinskinin kütləvi tədbirlərdə çıxışlarına məhdudiyyət qoyulmuşdu. Ancaq bu çətinliklər sənətkarı sənətdən küsdürməmişdi.

1943-cü ildə Xan Şuşinskiyə Xalq artisti fəxri adı verilib. O, bu fəxri ada birbaşa layiq görülən nadir sənətkarlardandır. Bu, ustad xanəndənin Azərbaycan musiqi mədəniyyəti qarşısındakı xidmətlərinə verilən yüksək qiymətin ifadəsi idi.

1944-cü ildə Xan Şuşinski Azərbaycan incəsənət ustalarının nümayəndə heyəti ilə İrana səfər edir. Tehran, Təbriz və digər şəhərlərdə keçirilən konsertlər böyük maraqla qarşılanır. Bu səfərin yaddaqalan hadisələrindən biri də vaxtilə İsfəndiyara "Xan" adının verilməsinə səbəb olan məşhur xanəndə Əbülhəsən xan İqbal Azərlə görüşü olur.

1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində yaradılan Muğam studiyasında dərs deməyə başlayan Xan Şuşinski bir müddət Asəf Zeynallı adına Musiqi Məktəbində (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci) də müəllimliklə məşğul olub. O, tələbələrinə təkcə muğamların incəliklərini yox, səhnə mədəniyyətini, klassik poeziyanın mətninə münasibəti, ifa məsuliyyətini aşılayıb. Xan Şuşinskinin yetirmələri sonralar Azərbaycan muğam məktəbinin tanınmış nümayəndələri sırasında yer tutublar. Onların xatirələrində Xan Şuşinski sadə, təmkinli, vüqarlı, alicənab, ağayana kişi kimi qalıb.

Xan Şuşinski 1979-cu il martın 18-də vəfat edib. Ancaq böyük sənətkarların ömrü onların yaşadığı illərlə ölçülmür. Onların yaratdığı məktəb, yetişdirdiyi davamçıları və səsləndirdikləri əsərlər zamanın yaddaşında yaşayır.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Milli-mədəni irsimiz

# Tükənməz maraq, sonsuz sevgi, bənzərsiz istedad

**Adı Azərbaycan teatr tarixinə həm aktyor, həm də rejissor kimi yazılan Xalq artisti İsmayıl Hidayətzadənin sənət yolu asan olmayıb. Çünki onun səhnə fəaliyyəti mürəkkəb bir dövrə təsadüf edib.**

Azərbaycan teatrının peşəkarlaşdığı, yeni axtarışların meydana çıxdığı, aktyor sənətinə münasibətin dəyişməyə başladığı vaxtlar idi. İsmayıl Hidayətzadə də bu prosesin ən fəal iştirakçılarından biri idi. O, teatra tükənməz marağı, sonsuz sevgisi, istedadı və zəhməti ilə böyük bir yol qət edib.

### "Balaca Ərəblinski"

İsmayıl Hidayətzadə 1901-ci il avqustun 19-da Bakıda dənizçi ailəsində dünyaya gəlib. Atası Hüseyn kişi gəmi qəzasına düşərək sağlamlığı ilə həmişəlik vidalaşıb xarrat işləyəndə İsmayıl balaca idi. Gün-güzəranları ağır keçsə də, ailəsini çətinliklə dolandırsa da, Hüseyn kişi oğlunun təhsil almasına çalışıb. İsmayılı molla məktəbinə aparıb. Yoxsul ailənin övladı olduğundan onun həmin məktəbdə güzəştlə təhsil almasına icazə verilib.

İsmayıl hələ kiçik yaşlarından məhərrəmlik mərasimlərini səbirsizliklə gözləyirdi. Qonşuluqda yaşayan tay-tuşları ilə birgə səhnəciklər qurardı. Meydan və küçə oyun tamaşaları, dərviş nağılları, şəbih mərasimləri balaca İsmayılın, əslində teatrla, səhnə ilə ilk tanışlığı idi.

Həmin dövrdə gənc teatr həvəskarları üçün Hüseyn Ərəblinski böyük sənət nümunəsi idi. Gənc aktyorların əksəriyyəti ona oxşamağa, onu təqlid etməyə çalışırdı. İsmayıl Hidayətzadə də Hüseyn Ərəblinskinin yaradıcılığından elə təsirlənir ki, oynadığı rolları görənlər ona "balaca Ərəblinski", - deyirdilər. İllər sonra İsmayıl Hidayətzadə öz xatirələrində yazmışdır: "Məktəbimizin müdiriyyəti tamaşalara rəhbərlik etmək üçün Ərəblinskini dəvət edirdi. O, truppanı öz istədiyi kimi tərtib edib, tamaşaları Tağıyev və Mayılov teatrlarında göstərmək üçün hazırlayırdı… Belə günlərin birində… mən Ərəblinski ilə, mənə çox böyük təsir bağışlayan bu adamla tanış olmuşam… Bütün xahişlərimə baxmayaraq, o, məni öz tamaşalarında məşğul etməkdən boyun qaçırırdı. Çünki mən hələ çox kiçik idim. Nəhayət ki, yanğımı duyub, "Ağa Məhəmməd Şah Qacar" pyesində kütləvi səhnələrə çıxmağıma razı oldu… Məni səhnədə görən aktyorlardan biri Ərəblinskini təqlid etdiyimi dərhal başa düşərək, qaçıb onu çağırır və məni göstərərək deyir: "Budur balaca Ərəblinski". Ərəblinski xeyli durub mənə baxır. Onun mənə baxdığını başa düşdükdə çox tutuldum, özümü büsbütün itirdim… O isə yaxınlaşıb, onu təqlid etməməyimi tapşırdı; dedi ki, mən rus aktyorlarının oyunlarına baxmalıyam, başqa əsərlərə tamaşa etməliyəm və çalışmalıyam ki, öz oyunumda özgələri təqlid etməyim, özüməməxsus tərzdə oynayım. Bu hadisədən sonra məktəb yoldaşlarım mənə "balaca Ərəblinski" adını qoydular".



Ancaq sonralar o, təqlidçilikdən uzaqlaşıb sənətdə öz yolunu müəyyənləşdirmişdir...



### Cib dəftərçəsinə yazılmış and

1917-ci ildə atası dünyasını dəyişib. Evin böyük oğlu olan İsmayıl təhsilini yarımçıq qoyaraq işləməyə başlayıb. Ticarət müəssisələrində pirkeşlik edib. Ancaq arzularından əl çəkməyib. 1917-ci ildən Bakıdakı müxtəlif dram həvəskarları dərnəklərində fəaliyyət göstərib, həm aktyorluq edib, həm də tamaşalar hazırlayıb.

1919-cu ildə müəllimi Mirzə Rza Vaizzadənin "Səyavuş" əsərini səhnələşdirməsi İsmayılın yaradıcılıq yolunda mühüm addımlarından biri olub. Bundan sonra peşəkar teatr dəstələri ilə əlaqələri yaranıb.

İsmayıl Hidayətzadə 1920-ci ildən Dövlət teatrında çalışıb. 1921-ci ildə işləməklə bərabər, Voronovun teatr studiyasına daxil olub. Teatr studiyasında öyrəndikləri onu aktyor kimi daha da püxtələşdirib.

Rejissorluğa marağı bu illərdə daha da güclənib. 1926-cı ildə arabir tamaşalara quruluş verməsi onu həm də rejissor kimi tanıdıb. 1934-cü ildə "Siyavuş" əsərini səhnələşdirmək ona həvalə edilib. Tamaşa uğurlu alınıb. O, sonralar Opera və Balet Teatrında "Koroğlu" və "Karmen" operalarını tamaşaya qoyub, Rus Dram Teatrında "1905-ci ildə", "Vaqif" tamaşalarını səhnələşdirib.

İsmayıl Hidayətzadənin quruluşunda "Koroğlu" və "Arşın mal alan" tamaşaları 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində də uğurla nümayiş olunub. Vətənə qayıtdıqdan sonra İsmayıl Hidayətzadə Opera və Balet Teatrının rəhbəri təyin edilib. Həmin illər onun yaradıcılığında yeni sənət uğurları ilə yadda qalıb. Artıq sənətdə özünəməxsus üslubu, rola fərdi yanaşması olan aktyor idi. Onun səhnəyə hər çıxışı, oynadığı hər rol alqışlarla qarşılanırdı.

Onun yaradıcılığında yazıçı-dramaturq Cəfər Cabbarlının əvəzsiz yeri olub. İsmayıl Hidayətzadə özü də tez-tez deyib ki, Cabbarlı məktəbinin yetirməsidir.

İstedad, zəhmət və məsuliyyət İsmayıl Hidayətzadənin bütün fəaliyyətinin əsasını təşkil edib. Ona həvalə olunan hər bir rolun üzərində yorulmadan çalışıb. Qəhrəmanlarını səhnədə canlandırmaq üçün xarakterlərini müəyyənləşdirib, hansı dövrdə yaşadığını, o vaxtın xüsusiyyətlərini öyrənib. Odur ki, oynadığı hər rolu - "Sevil"də Əbdüləli, "Almaz"da Şərif, "1905-ci ildə"də Mazandaranski, "Oqtay Eloğlu"nda Əmiraslan bəy Salamov, "Dönüş"də Xosməmməd, "Lyubov Yarovaya"da Şvandiya, "Günahsız müqəssirlər"də Şmaqa, "Hacı Qara"da Hacı Qara, "Topal Teymur"da Cücə, "Knyaz"da Şakro, "İki yetimə"də Pyer, "Tələbələrin kələyi"ndə Rəmzi, "Ölülər"də Şeyx Nəsrulla, "Yurdsuz insanlar"da Baron rolları ona uğur gətirib, tamaşaçı alqışları qazandırıb. İsmayıl Hidayətzadənin adı Azərbaycan incəsənəti tarixində həm də ilk milli baletimizin - "Qız qalası"nın librettosunun müəllifi kimi qalıb.

Ömrünün böyük hissəsini teatra həsr edən sənətkar kino sənətindən də kənarda qalmayıb, "Qız qalası əfsanəsi" (1923), "Altıncı hiss" (1935), "Almaz" (1936) filmlərində çəkilib.

Azərbaycan mədəniyyətinin inkişafında göstərdiyi xidmətlərə görə, İsmayıl Hidayətzadə Əməkdar artist (1933), Xalq Artisti (1938) fəxri adlarına layiq görülüb. "Qırmızı əmək bayrağı" (1938) və "Şərəf nişanı" (1946) ordenləri ilə təltif olunub.

İsmayıl Hidayətzadə 1951-ci il noyabrın 11-də 50 yaşında vəfat edib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Alovlu satirik, tanınmış ədəbiyyatşünas və tərcüməçi

**XX əsr Azərbaycan ədəbi fikrinin görkəmli müəlliflərindən biri də tanınmış şair, ədəbiyyatşünas və tərcüməçi Əli Nəzmidir. Mirzə Ələkbər Sabir ədəbi məktəbinin fəal davamçılarından olan şair ömrünün 50 ilini bədii yaradıcılığa həsr edib. Sələfləri kimi xalqımızın azadlığı, Azərbaycanın milli müstəqilliyi və tərəqqisi, mədəniyyəti və maarifinin inkişafı yolunda mübarizə aparıb.**

Əli Məhəmməd oğlu Məmmədzadə (Əli Nəzmi) 1878-ci ildə Gəncə yaxınlığındakı Sarov (Sərab) kəndində yoxsul bir ailədə dünyaya göz açıb. İbtidai təhsilini mollaxanada alan Əli sonra rus-tatar məktəbində oxuyur. Ancaq atasının vaxtsız vəfatı üzündən təhsilini davam etdirə bilmir. Ailəsinə kömək məqsədilə yaxın qohumu onu özü ilə Buxara və Səmərqəndə aparır. Orada 2 ilə yaxın dükanda şagird iləyən Əli mütaliə yolu ilə təhsilini və bilgisini artırır, klassik Şərq ədəbiyyatını dərindən öyrənir. Hətta "Bikəs" təxəllüsü ilə şeirlər yazır.

Əli Vətənə qayıtdıqdan sonar tez-tez Tiflisə gedir, yenicə nəşrə başlayan "Şərqi-rus"un redaksiyasına gəlir və M.Şahtaxtinski ilə tanış olur. İlk mətbu əsəri "Kənddə ibtida" şeiri 1904-cü ildə "Şərqi-Rus" qəzetində dərc olunur. Bundan sonra qəzetdə ara-sıra şeir və məqalələri çap edilir. Növbəti gəlişlərindən birində elə həmin redaksiyada Mirzə Cəlil və Ömər Faiq Nemanzadə ilə tanış olur. Bu tanışlıq sonralar möhkəm dostluğa çevrilir. "Molla Nəsrəddin" jurnalı öz qayəsi ilə onun diqqətini çəkir. O, ilk dəfə bu jurnalla əməkdaşlığa 1906-cı ildə "Əlidəyənəkli" imzası ilə kiçik bir məktubla (bəzi tədqiqatçılar bunu felyeton da adlandırırdılar) başlayır.

O zaman ölkədə baş verən inqilabi hərəkat (1905-1907) ona böyük təsir edir, yaradıcılığında dönüş yaradır. Satirik şeirləri "Məşədi Sijimqulu" və "Kefsiz" imzası ilə jurnalda işıq üzü görür. Qələmə aldığı "İstibdad", "Qorxuram", "Olacaqmı", "Sizə nə", "Ey füqarə", "Od tutub odlandı vətən" və başqa şeirlərində mütləqiyyətə, müstəmləkəçilik siyasətinə, dini fanatizmə və geriliyə qarşı azadlıq ideyalarını təbliğ edir. Şeirləri cəmiyyətdə birmənalı qarşılanmayan şair doğma kəndində təqib olunduğuna görə ailəliklə Gəncəyə köçür. Əsərlərini "Ə.S.Əlidəyənəkli", "Həcəmətverdi", "Sərsəm", "Qanacaqsız", "Şəmşir", "Şəmşirək", "Peşiman qoca", "Gəncə cavanları", "Müt-şair", "Şallax", "Kav-mahi", "Qoca zığ-zığ", "Papirosçəkən" və s. gizli imzalarla dərc etdirir. Qələm yoldaşları arasında "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndəsi kimi tanınır.



Çarizmin müstəbidliyi, millətlərə qarşı sonsuz zülmü Əli Nəzminin 1920-ci ilə qədərki yaradıcılığında kədərli bir dillə təsvir olunur. Şair "Bu da bir bahar" əsərində vətən yaralarını ümidsiz və qəmli notlarla qələmə alır.

*Qırmızı qan ilə əlvandır bu gün lövhi-vətən,*
*Çəngi-istibdaddə qəbz olmada ruhi-vətən.*

Azadlıq ümidinin nəticəsi və irticanın qara əlləri ilə hər şeyin alt-üst edildiyini görən müəllif yazır:

*Od tutub odlandı vətən sərbəsər*
*Olmadı övladi-vətən bəxtəvər.*

Görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"də Əli Nəzmi haqqında məqaləsində yazır: "O vaxt biz məcmuəmizin 12-ci nömrəsində "Quli-biyabani" sərlövhəli bir məqalə ilə varlılarımıza tənəli bir xitab dərc etdik. Ta ki ondan bir neçə vaxt sonra Sabirin "Tömeyi-nahar"ı bizim səsimizə səs verdi. Bununla da Məşədi Sijimqulu Kefsiz də meydana çıxdı. M.Ə.Sabirin "Tömeyi-nahar"ına cavab olaraq "Çayda çapan qardaşım, ağlama, ağları gör" mətləli şeirini göndərdi. Məşədi Sijimqulunu ilk dəfə məcmuəmizdə nəzm ilə danışdıran, onun təbii şeirini büruzə verən həmən "Tömeyi-nahar" oldu..."

Mirzə Cəlilin bu fikrini sonralar ədəbiyyatşünas alim Mir Cəlal təsdiq edərək yazırdı: "İmza atmasa Sabir ilə Əli Nəzminin şeirlərini bir-birindən ayırmaq çox çətindir".

Ə.Nəzmi satirik şeirdə məharət sahibi olduğunu göstərir. Müraciət etdiyi mövzular, demək olar ki, Sabir yaradıcılığı ilə eyniyyət təşkil edir. Onun xurafatçıları, xalqı aldadan falçıları və s. həcv edən şeirlərində Sabir ruhu duyulur. Sabirin vəfatından sonra "Molla Nəsrəddin"də, eləcə də "Məzəli", "Zənbur", "Tuti" və başqa mətbu orqanlarda ən yaxşı satirik şeirlər yazan Ə.Nəzmi olub.

Şair "İrsi xəbər" (Ata irsi), "Gülürəm", "Yorğun bir baxış" şeirlərində bir rəssam kimi cəhalət və nadanlığın mənzərəsinin ibrətli təsvirini verib. "Ədəbiyyat, yaxud minacat" satirasında qəzetlərdən qorxub küyə düşən köhnəpərəstləri, "Məzəli" şeirində İran hökmdarı Məhəmmədəli şahı tənqid atəşinə tutub.

Ə.Nəzmi Gəncədə uzun müddət müəllim işləyib. 1924-1926-cı illərdə "Yeni Gəncə" qəzeti redaksiyasında, bir müddət sonra Bakıya köçərək "Kəndli" qəzeti və "Molla Nəsrəddin"də məsul katib kimi çalışıb. Ədib "Məlimat", "Tərəqqi", "Yeni irşad", "Günəş", "Qardaş köməyi" kimi qəzet və jurnallarla da əməkdaşlıq edib. Bu mətbu orqanlardandakı çıxışlarından məlum olur ki, Ə.Nəzmi təkcə satirik şeirlər deyil, eyni zamanda nəsrlə də maraqlanmış, publisistik məqalələr və felyetonlar da yazmışdır.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan şair İkinci Dünya müharibəsi dövründə alman faşizminə qarşı kəskin satirik əsərlər qələmə alıb. O, həmçinin tərcüməçiliklə də məşğul olub, N.Gəncəvi, Ə.Firdovsi, İ.Krılov kimi sənətkarlardan tərcümələr edib. Eyni zamanda dəyərli ədəbi-tənqidi məqalələri işıq üzü görüb. XX əsr Azərbaycan ədəbiyyatı və mətbuatından bəhs edən "Keçmiş günlər" (1944) adlı mənzum xatirə yazıb.

Əli Nəzmi 4 yanvar 1946-cı ildə 68 yaşında vəfat edib.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Mömünə xatun türbəsində bərpa işlərinin əsas prinsipi abidənin orijinallığının qorunmasıdır

**“Mömünə xatun türbəsinin tarixi-memarlıq xüsusiyyətlərinin qorunması və uzunmüddətli mühafizəsinin təmin edilməsi məqsədilə hazırda abidədə kompleks bərpa, konservasiya və elmi-tədqiqat işləri aparılır. Belə ki, abidənin mövcud vəziyyətinin qiymətləndirilməsi, hərtərəfli tədqiqat və ölçmə işlərinin aparılması istiqamətində tədbirlər görülür. Bu prosesdə əsas prinsip müdaxilələrin elmi əsaslarla həyata keçirilməsi və abidənin autentikliyinin qorunmasıdır”.**

Bunu AZƏRTAC-a açıqlamasında memar Aysel Hüseynova deyib.



O bildirib ki, Möminə xatun türbəsinin 1998-ci ildə UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilməsi, 2001-ci ildə isə dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət mühafizəsinə götürülməsi onun həm universal, həm də milli dəyərinin göstəricisidir.

“Bu gün həyata keçirilən bərpa və konservasiya işləri abidənin mövcud vəziyyətinin yaxşılaşdırılmasına və dayanıqlılığının təmin edilməsinə yönəlib. Aparılan elmi tədqiqatlar və monitorinq tədbirləri türbənin vəziyyətinin dəqiq qiymətləndirilməsinə, mümkün risklərin müəyyənləşdirilməsinə və onların qarşısının alınmasına imkan yaradır. Əsas məqsəd Möminə xatun türbəsinin tarixi və mədəni əhəmiyyətini qorumaqla onun uzunmüddətli mühafizəsini təmin etməkdir”, – deyə memar bildirib.

# Bir dənizin taleyi, beş ölkənin məsuliyyəti

**Xəzər dənizi xəritədə yalnız beş ölkənin sahillərini birləşdirən nəhəng su hövzəsi deyil. O, minilliklər boyu bu coğrafiyanın təbiətinə, iqliminə, iqtisadiyyatına və insan həyatına təsir göstərən təbii sərvətdir. Sahillərində yaşayan milyonlarla insan üçün Xəzər həm həyat mənbəyi, həm əmək və gəlir yeri, həm də təbiətin əvəzsiz nemətidir. Onun sularında formalaşan canlı aləm isə yalnız bir ölkənin deyil, bütöv Xəzər regionunun bənzərsiz varlığıdır.**



Lakin bu gün Xəzərin sakit görünən sularının altında ciddi ekoloji problemlər yaşanır. Dənizin çirklənməsi, çaylar vasitəsilə müxtəlif tullantıların hövzəyə daşınması, sənaye və neft-qaz fəaliyyətinin yaratdığı risklər, biomüxtəlifliyin azalması, iqlim dəyişmələrinin təsirləri və son illər daha qabarıq görünən su səviyyəsinin enməsi Xəzərin gələcəyi ilə bağlı narahatlığı artırır. Suyun geri çəkilməsi təkcə sahil xəttinin dəyişməsi demək deyil. Bu proses bütövlükdə dəniz ekosisteminə, balıq ehtiyatlarına, su-bataqlıq ərazilərinə, sahilyanı yaşayış məntəqələrinə və iqtisadiyyata təsir göstərə biləcək mürəkkəb bir ekoloji zəncir yaradır.

Xəzərin taleyinə "yazılmış" bir həqiqət isə xüsusilə diqqət çəkir: bu dənizin heç bir sərhədi yoxdur, amma onun gələcəyi beş ölkənin birgə səy göstərməsini tələb edir. Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan sahillərini əhatə edən bu unikal su hövzəsinin qorunması bu dövlətlərin birgə fəaliyyətindən keçir. Çünki Xəzərin bir hissəsində baş verən ekoloji proses digər sahillərə də təsirsiz ötüşmür.

Məhz bu reallıq Xəzərin mühafizəsini regional əməkdaşlığın ən mühüm istiqamətlərindən birinə çevirib. Beş Xəzəryanı dövlətin ətraf mühitin qorunması sahəsində əməkdaşlığının hüquqi əsasını yaradan Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası - Tehran Konvensiyası bu baxımdan mühüm mərhələdir. Konvensiya 2006-cı il avqustun 12-də qüvvəyə minib. Bu, təbii ki, təqvimdə sadəcə bir tarix deyil. O, "Xəzəri gələcək nəsillərə hansı vəziyyətdə çatdıracağıq?" sualını gündəmə gətirən, Xəzərin taleyinə ortaq məsuliyyət və gələcək qarşısında öhdəlik anlayışını formalaşdıran mühüm bir mərhələdir. Çünki Xəzərin qorunması yalnız ayrı-ayrı ölkələrin deyil, bu dənizin sahilində yaşayan bütün xalqların və gələcək nəsillərin taleyi ilə bağlı məsələdir. Onun təmizliyinin, bioloji müxtəlifliyinin və ekoloji tarazlığının qorunması bu gün atılan addımların sabahkı nəticələrini nəzərə almağı tələb edir. Bu baxımdan, Tehran Konvensiyası Xəzərin taleyinə münasibətdə təkcə hüquqi öhdəliklər müəyyənləşdirən sənəd deyil, həm də sahilyanı dövlətləri ümumi məqsəd ətrafında birləşdirən mühüm ekoloji əməkdaşlıq platformasıdır.

Tehran Konvensiyasından 12 il sonra - 2018-ci ildə Qazaxıstanın Aktau şəhərində keçirilən Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması isə Xəzərin gələcəyi ilə bağlı regional əməkdaşlığın daha bir mühüm hüquqi mərhələyə qədəm qoyduğunu göstəricisidir. Bu sənəd Xəzərin hüquqi statusunu müəyyənləşdirməklə yanaşı, sahilyanı dövlətlər arasında qarşılıqlı fəaliyyətin, sabitliyin və dənizin təbii sərvətlərindən məsuliyyətli istifadənin mühüm əsaslarını formalaşdırdı. İndi qarşıda duran əsas məsələ isə qəbul olunmuş prinsiplərin Xəzərin gündəlik həyatında, onun sularında və sahillərində real nəticələrə çevrilməsidir.

Çünki Xəzər bizə yalnız bu günü deyil, gələcəyi də etibar edib. Bu etimadı doğrultmaq isə Xəzərin yalnız bu gününü qorumaq deyil, onun bioloji ehtiyatlarını mühafizə və bərpa etmək, dənizin çirklənməsinin qarşısını almaqdır.

Dünyanın ən böyük daxili su hövzəsi olan Xəzəri təkcə coğrafi baxımdan deyil, zəngin və özünəməxsus canlı aləminə görə də əvəzsiz təbiət xəzinəsi adlandırmaq olar. Minilliklərin sınağından keçərək bu günümüzə qədər gəlib çatan flora və fauna müxtəlifliyi Xəzərin təbiətə bəxş etdiyi ən böyük sərvətlərdən biridir. Bu zənginlik yalnız Xəzəryanı ölkələrin deyil, bütövlükdə bəşəriyyətin qorunması və gələcək nəsillərə çatdırılması vacib olan ortaq təbii irsdir.

Dənizin dərinliklərində və sahilyanı ərazilərində çoxsaylı bitki və heyvan növləri məskunlaşıb. Onların arasında nadir və endemik növlərlə yanaşı, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısına daxil edilmiş yüzlərlə canlı növü də var. Bu mənzərə Xəzərin nə qədər həssas və əvəzolunmaz ekosistemə malik olduğunun təsdiqidir. Burada hər bir canlı növünün qorunması, əslində, Xəzərin özünün gələcəyinin qorunması deməkdir.

Lakin qlobal temperatur artımının təsirləri xüsusilə son 30 ildə Xəzərin taleyində daha aydın hiss olunmağa başlayıb. İqlim dəyişmələri, su ehtiyatlarına artan tələbat və çayların axınının azalması dənizə daxil olan suyun həcminə təsirsiz ötüşmür. Bununla yanaşı, temperaturun yüksəlməsi Xəzər səthindən buxarlanmanın intensivləşməsinə səbəb olur. Nəticədə dənizə daxil olan su ilə itirilən su arasındakı tarazlıq getdikcə pozulur və bu, Xəzərin səviyyəsinin dəyişməsində özünü göstərir.

Əslində, Xəzərin səviyyəsi tarix boyu sabit qalmayıb, vaxtaşırı yüksəlib və enib. Son 200 ildə bu dəyişkənlik aydın müşahidə olunub, dəyişmə amplitudası təxminən 4 metrə çatıb. Ayrı-ayrı dövrlərdə dənizin səviyyəsi 80 santimetrdən 3 metrədək yüksəlib və ya azalıb. 1978-1995-ci illərdə 2,5 metr yüksəlişdən sonra 1996-cı ildən etibarən yenidən enmə mərhələsi başlayıb. Hazırda dəniz səviyyəsi Baltik sisteminə görə, -29 metrdən aşağıdır və yaxın illərdə enmənin davam edəcəyi proqnozlaşdırılır (Məlumat üçün bildirək ki, Baltik sistemi Xəzərin səviyyəsini ölçmək üçün istifadə olunan şərti istinad sistemidir. Daha sadə desək, dünyada müxtəlif su hövzələrinin səviyyəsini müqayisə etmək üçün müəyyən "sıfır" nöqtəsi qəbul edilir. Baltik yüksəklik sistemi də belə istinad sistemlərindən biridir və əsasən, Baltik dənizindəki Kronştadt futştokunun sıfır göstəricisinə əsaslanır. "Xəzərin səviyyəsi Baltik sisteminə görə, -29 metrdir" o deməkdir ki, Xəzərin orta səviyyəsi həmin istinad nöqtəsindən təxminən 29 metr aşağıda yerləşir). Bununla belə, Xəzərin səviyyəsinin tarixən periodik dəyişdiyi nəzərə alınaraq, əsrin ortalarına doğru yenidən yüksəliş mərhələsinin başlaya biləcəyi ehtimal olunur.

Ona görə də Xəzərin gələcəyini qorumaq, ilk növbədə, onun ətraf mühitinə münasibəti dəyişməkdən başlayır. Dənizin çirklənməsinin qarşısının alınması, tullantıların su hövzəsinə axıdılmasına yol verilməməsi Xəzərin sağlamlığının əsas şərtlərindəndir. Su ehtiyatlarından qənaətlə və düzgün istifadə etmək də bu mübarizənin vacib istiqamətlərindəndir. Çünki Xəzərin taleyi yalnız onun sahilində yerləşən ölkələrin deyil, bütün regionun ortaq məsuliyyətidir. Xəzəryanı dövlətlər arasında əməkdaşlığın daha da gücləndirilməsi, ümumi ekoloji yanaşmanın formalaşdırılması və birgə tədbirlərin davam etdirilməsi dənizin gələcəyi üçün mühüm şərtdir.

Xəzəri qorumaq, əslində, yalnız bir dənizi xilas etmək deyil. Bu, təbiətlə insan arasında tarazlığı qorumaq, gələcək nəsillərə sağlam ekosistem və təmiz Xəzər miras qoymaq deməkdir. Bu gün atılan hər doğru addım sabah Xəzərin taleyində öz əksini tapacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
17-ci səfər
Prezident İlham ƏLİYEV: "Hər səfərimin böyük mənası və gözəl nəticələri vardır"
Uzaq Vaşinqtondan yaxın münasibət
Azərbaycan və ABŞ Cənubi Qafqazda yeni düzən formalaşdırır
Azərbaycanın etibarlı tərəfdaşlıq və sülh modeli
Azərbaycan Prezidentinin irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsü geosiyasi baxımdan olduqca səmərəlidir
Kapital qoyuluşunun dinamikası yüksəlir
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## BEYNƏLXALQ HƏYAT

# Yeni yoxlama sistemindən sonra Aİ ölkələrinin hava limanlarında növbələr artıb

**Bir neçə Aİ ölkəsindəki hava limanlarında sərhəd nəzarəti gözləmə müddəti əhəmiyyətli dərəcədə artıb. "Financial Times" qəzetinin məlumatına görə, problem xüsusən yay turizm mövsümünün bugünkü pik dövründə özünü göstərir.**

Bunun səbəblərindən biri Aİ-yə üzv olmayan ölkələrdən gələn səyahətçilər üçün tətbiq olunan yeni qeydiyyat qaydalarıdır. Elektron giriş-çıxış sisteminə (EES) əsasən, sərnişinlər xarici sərhədi ilk dəfə keçərkən şəxsi məlumatlarını təqdim etməli, fotoşəkilləri çəkilməli və barmaq izləri götürülməlidir. Bu cür əlavə biometrik prosedurlar yoxlama müddətlərini artırıb və bəzi böyük hava limanlarında tıxaclara səbəb olub. Nəşrin məlumatına görə, iyul ayında Frankfurt hava limanında gözləmə müddəti 120 dəqiqəyə çatıb ki, bu da əvvəlki ilin göstəricisindən iki dəfə çoxdur. Münxendə gözləmə müddəti 31 dəqiqədən 60, Amsterdamda isə 80 dəqiqədən 120 dəqiqəyə qədər artıb. Qeyd edək ki, turizm sənayesi nümayəndələri EES-nin işə salınmasından əvvəl belə potensial gecikmələr barədə xəbərdarlıq etmişlər.



Bu arada "British Airways" və "EasyJet" aviasiya şirkətlərinin nümayəndələri hava limanı xidmətlərini sərnişinlərin gözləmə müddətini minimuma endirmək üçün yoxlama prosesini daha yaxşı təşkil etməyə çağırıblar.

# Fransadakı AES-də üç reaktor bağlanıb

## Səbəb nə qədər qəribə də olsa, meduzalardır

**Mütəxəssislər bildirirlər ki, həddindən artıq balıq ovu, plastiklərlə çirklənmə və iqlim dəyişikliyi səbəbindən dənizlərin istiləşməsi meduzaların çoxalması üçün əlverişli şərait yaradıb.**

Energetika şirkəti EDF bildirib ki, Fransanın şimalındakı "Qravlin" atom-elektrik stansiyasındakı üç reaktor enerji bloklarını soyutmaq üçün istifadə edilən nasosların tıxanmasından sonra bağlanıb. EDF-nin açıqlamasında həmçinin dördüncü reaktorun gücünün yarıya endirildiyi, yalnız bir reaktorun tam gücdə işlədiyi barədə məlumat verilib. Digər, altıncı reaktor isə bundan əvvəl planlaşdırılmış təmir üçün bağlanmışdı. Amma yaranmış vəziyyət obyektlərin və personalın təhlükəsizliyinə, habelə ətraf mühitə təsir göstərmir.



Bu il Fransanın nüvə enerjisi istehsalı həddindən artıq isti və quraqlıq səbəbindən pozulub. İyun və iyul aylarında EDF anomal yüksək temperatur səbəbindən bir neçə reaktoru dayandırıb. "Frans Press" Azgentliyi EDF-nin 2015-ci ildən bəri dərc edilən məlumatlarına əsasən xəbər verir ki, son bağlanmalardan əvvəl belə, Fransanın nüvə stansiyalarında elektrik enerjisi istehsalı kəsiri 15,6 faizə çatmışdır.

Şimaldakı Dünkerk şəhəri yaxınlığında yerləşən "Qravlin" atom-elektrik stansiyası Qərbi Avropanın ən böyük analoji obyektidir və ərazidə altı 900 meqavatlıq reaktor fəaliyyət göstərir. Bir il əvvəl meduzalar dəniz suyu verən nasos stansiyalarını tıxadıqdan sonra stansiya müvəqqəti olaraq bağlanmışdı.

Meduza sürüləri əvvəllər digər ölkələrdə də nüvə-elektrik stansiyalarının bağlanmasına səbəb olmuşdu. 2013-cü ildə İsveçdə bir nüvə-elektrik stansiyası 3 gün bağlanmışdı, Yaponiyada isə 1999-cu ildə baş verən oxşar hadisə istehsalın kəskin azalmasına səbəb olmuşdu.

***Hazırladı: Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Lənkəranda kanalizasiya sisteminin yenilənməsi işlərinə başlanılıb

**Lənkəranda ən ciddi problemlərdən biri - kanalizasiya sisteminin yenilənməsi istiqamətində mühüm addımlar atılır. "Lənkəran şəhərinin su təchizatı və kanalizasiya sisteminin yaradılması" layihəsi çərçivəsində işlərə artıq start verilib.**

Səttərxan, Tofiq Aslanov, H.Z.Tağıyev və Koroğlu küçələrindən start götürən layihə üzrə tikinti-quraşdırma işlərinin miqyası yaxın günlərdə daha da genişlənəcək. Yaxşı olan həm də odur ki, layihə çərçivəsində asfalt örtüyünün kəsilərək tullantı poliqonuna daşınması, qazılma zamanı yaranan yararsız torpağın kənarlaşdırılması, kommunikasiya xətlərinin köçürülməsi və bərpası, habelə təmir işləri aparılan yolların ərazisində işlər bitəndən dərhal sonra asfaltlanmanın aparılması nəzərdə tutulur.

Qeyd edək ki, Lənkəran şəhərinin kanalizasiya sistemi ötən əsrin 50-60-cı illərində cəmi 20 min nəfərin tələbatını ödəmək şərti ilə inşa edilib. Sonrakı dövrdə şəhər və ətraf yaşayış məntəqələrinin əhalisi üç dəfədən çox artdığı üçün köhnəlmiş sistem mövcud tələbatı qarşılaya bilmirdi.

Kanalizasiya sisteminin yenidən qurulması şəhər və ətraf ərazilərin inkişafına, əhalinin yaşayış şəraitinin yaxşılaşmasına, ətraf mühitin qorunmasına, bu sahədə mövcud olan problemlərin birdəfəlik həllinə mühüm töhfə verəcək. Aparılan işlər müəyyən müddət rahatsızlıq yaratsa da, sakinlər bunu anlaşıqlı qəbul edirlər. Anlayırlar ki, bu işlər gələcəkdə şəhərin müasir və dayanıqlı kanalizasiya infrastrukturuna qovuşması, onların rahat və sağlam yaşayış şəraiti ilə təmin olunması naminə həyata keçirilir.



***Seyran CAVADOV,***
***"Azərbaycan"***

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İsgəndər Musa oğlu Məmmədovun adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Nigar Məmmədovaya əzizi

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azər Muradov, Ələddin və Sabir Hacıyevlər, Əli, Rafiq və Nail Hüseynovlar, Əlövsət Əliyev, İlham İbrahimov, Hidayət və Mircəfər İsmayılovlar, Samiq Vəliyev və İlham Həsənov dostları Murad Muradova anası

**ATLAS MAXSUD QIZI MURADOVANIN**

Tərtər rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Elşad Musayev, Səttar Möhbalıyev, Ziyad Səmədzadə, Jalə Əliyeva, Sevinc Hüseynova, Vüqar Bayramov, Soltan Məmmədov, Əziz Ələkbərov, Bədəl Bədəlov, Göydəniz Qəhrəmanov və Milli Məclis Aparatının əməkdaşları İlahə Mehrəliyeva, Hüseyn Əliyev və Yusif Hüseynli Milli Məclisin deputatı Nigar Məmmədovaya qayınatası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3303**
**Sifariş 1033**

**Qiyməti 60 qəpik**